QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 201 (5921) **31 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan MDB-də iştiraka böyük əhəmiyyət verir"

*Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib*



Səh 2

6

**Bakıda Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin təqdimatı keçirilib**



7

**Dövlət Agentliyinin sədri YAP İcra Katibliyində partiyanın gənc üzvləri ilə görüşüb**



7

**"ABŞ Nümayəndələr Palatasının qondarma "erməni soyqırımı" haqqında qətnaməsini qərəzli və ədalətsiz hesab edirik"**



# "Azərbaycan MDB-də iştiraka böyük əhəmiyyət verir"

## *Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev bildirib ki, MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da bu təşkilatda iştiraka böyük əhəmiyyət verir:***

-Əziz qonaqlar, sizi salamlayıram. Çox şadam ki, Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclası Bakıda keçirilir. Bu tədbir özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizi daha sıx birləşdirir, ikitərəfli gündəliyə dair söhbət etmək üçün yaxşı imkan yaradır. Bildiyiniz kimi, bu yaxınlarda Aşqabadda dövlət başçılarının Zirvə Görüşü çox uğurlu keçdi. MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da bu təşkilatda iştiraka böyük əhəmiyyət verir. Bir sıra məsələlərə dair bizim konstruktiv mövqeyimiz də MDB çərçivəsində qarşılıqlı fəaliyyətin daha da möhkəmlənməsinə töhfə verir. Əlbəttə, xüsusən müasir mərhələdə bizim regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir. Zənnimcə, buna görə MDB üzvü olan ölkələrin sabitliyi və davamlı inkişafı çox cəhətdən dövlətlərimizin təhlükəsizliyini təmin edən orqanların qarşılıqlı fəaliyyətindən asılıdır.

Dövlət başçılarının Aşqabad Zirvə Görüşü çərçivəsində müzakirə edilən mövzulardan biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə hazırlıq məsələsi idi. Biz Azərbaycanda da buna çox fəal hazırlaşırıq. Bu, bizim ümumi Qələbəmizdir, Azərbaycanda dövlət səviyyəsində qeyd edilən Qələbədir. 9 May ölkəmizdə dövlət bayramıdır. Bu bayram Heydər Əliyev Azərbaycana qayıdandan sonra bərpa edildi. Təəssüf ki, müstəqilliyin ilk illərində Xalq Cəbhəsinin xalqa zidd olan iqtidarı təqvimdəki bu qırmızı günü silməklə onu xalqımızın yaddaşından da silməyə cəhd göstərdi, veteranlara hörmətsizlik etdi. Əslində bu, Böyük Vətən müharibəsinin tarixini təhrif etmək cəhdləri idi. İndi bəzi ölkələrdə belə cəhdlər təəssüf ki, kifayət qədər kütləvi xarakter alır. Beləliklə, 9 May günü uzun illər boyu dövlət bayramı kimi qeyd edilir və veteranlara qayğı bizim gündəlik işimizin ayrılmaz tərkib hissəsidir. Veteranlar diqqət və qayğı ilə əhatə olunub, onların maddi vəziyyəti təmin edilir. Onlar bizim üçün, hamı üçün qəhrəmanlıq nümunəsidir.

Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Bunu demək kifayətdir ki, ümumi Qələbəmiz üçün tələb olunan yanacağın çox böyük hissəsini - neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Bakı təmin edirdi. Bu potensial olmasaydı, faşist Almaniyasına qalib gəlmək çox çətin olardı. Təsadüfi deyil ki, faşist Almaniyası gözlərini Bakıya zilləmişdi, Bakını tutmaq planları vardı. Bu halda sovet ordusu zəruri yanacaqdan məhrum olardı. Tarixdən yaxşı bilirik ki, faşistlərin öz hücumlarını inkişaf etdirə bilməməsinin bir səbəbi məhz o idi ki, onlar yanacaq sarıdan korluq çəkirdilər. Bakı neftçiləri əsl fədakarlıq göstərir, gecə-gündüz işləyirdilər. Məhz həmin illərdə neft hasilatı rekord səviyyəyə - orta hasilat səviyyəsindən iki dəfə yüksək həddə çatmışdı. Böyük Vətən müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyüməkdə olan nəsil üçün örnəkdir.

Təsadüfi deyil ki, tarixin saxtalaşdırılması, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi, tarixin yenidən yazılması cəhdlərinə Azərbaycanda çox həssas yanaşırıq. Bu, təkcə tarixin təhrif edilməsi baxımından deyil, gələcək nəsillər üçün də böyük təhlükədir. Çünki onlar bu miflərə inana bilər, mahiyyət etibarilə tarixi həqiqətdən uzaqlaşa bilərlər. Buna görə biz müharibənin səbəbləri haqqında, təcavüzkarın kim olması və həm ölkəsini, həm də dünyanın yarısını XX əsrin bu taunundan xilas etmiş sovet xalqının qəhrəmanlığı barədə həqiqətin dünyaya çatdırılması üçün ümumi səylərimizlə çox fəal iş aparmalıyıq.

Aşqabad Zirvə Görüşü zamanı mən belə bir məsələ də qaldırdım ki, MDB məkanında da təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları var. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adam deyirdi ki, "Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür". Bu adam SMERŞ tərəfindən tutularaq uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıb. Bax, belə bir "xadim"ə heykəl qoyulub və bu heykəl indiyə qədər götürülməyib. Mən həm dövlət başçılarının, həm də Ermənistanın yeni rəhbərliyinin diqqətini bu məqama cəlb etdim ki, MDB məkanında bu, yolverilməz hərəkətdir. Ermənistanın yeni rəhbərliyi özünün faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi ilə assosiasiya edilməsinə imkan verməməlidir. Təəssüf ki, bu heykəl indiyə qədər götürülməyib və bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur. Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu, nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni, əslində, bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm Birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, Böyük Vətən müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın. Bugünkü iclas məsələsinə qayıdaraq, qeyd etmək istəyirəm ki, əlbəttə, sizin gündəliyiniz çox zəngindir. Əminəm ki, müzakirələr ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcək. Bir daha xoş gəlmisiniz.

x x x

Sonra çıxış edən Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqu dedi:

-Hörmətli cənab Prezident.

Bizimlə görüşmək üçün vaxt tapdığınıza görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Biz konkret olaraq Qələbənin gələcək yubileyi, ata və babalarımızın igidlikləri ilə bağlı xatirəni ümumi səylərimizlə qoruyub saxlamalı olmağımız barədə Sizin baxışlarınıza şərikik.

***Ardı Səh. 3***

# "Azərbaycan MDB-də iştiraka böyük əhəmiyyət verir"

*Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib*



Əvvəli-Səh-2

Əlbəttə, o tarixi yenidən yazmaq, qalibləri məğlublar, məğlubları isə qaliblər kimi qələmə vermək məqsədilə göstərilən hər hansı cəhdlərə qarşı mübarizə aparmaq üçün nə mümkündürsə etmək lazımdır. Eyni sözlər bu böyük savaşın, ölkəmiz üçün ağır müharibənin gedişində törədilmiş cinayətlərə də aiddir. Bu gün bir tərəfdən tarixi yenidən yazmaq, digər tərəfdən qaliblərin məğlub sayılması üçün əlindən gələni etmək istəyənlərin sayı get-gedə artmaqdadır. Biz bunu nəzərə alaraq, bütün həmkarlarımızı Moskvada keçiriləcək bayram tədbirinə dəvət etmişik ki, Birlik ölkələrindən olan hərbi kontingent Qızıl Meydanda Qələbə paradında iştirak etsin. Ümidvaram ki, azərbaycanlı hərbi qulluqçular da əvvəllər olduğu kimi, bu tədbirdə çox fəal iştirak edəcəklər.

Bizim gündəliyə gəldikdə isə o, kifayət qədər genişdir. Əməkdaşlıq bizim birlikdə baxdığımız, təsdiq etdiyimiz planlar üzrə inkişaf edir. Burada xüsusi qeyd etmək istərdim ki, bu gün Rusiya beynəlxalq terrorizmə qarşı mübarizədə böyük təcrübə qazanıb, biz bu təcrübəni həmkarlarımızla bölüşməyə hazırıq. Bu, həm beynəlxalq terrorizmə qarşı mübarizə, həm humanitar kömək, o cümlədən minalardan təmizləmə, tibbi yardım və bir sıra başqa məsələlərə aiddir. Son hadisələr, Soçidə aparılmış danışıqlar, əldə edilmiş razılaşmalar, bizim Prezident və Türkiyə Prezidenti tərəfindən imzalanmış Memorandum çətinliklə həyata keçirilir, lakin görürük ki, bu, sülhün bərqərar olması, Suriyanın suverenliyinin qorunub saxlanması üçün yeganə üsuldur.

# Prezident İlham Əliyev Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini bir daha çatdıraraq, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğuladı. Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri haqqında fikir mübadiləsi aparıldı.

# Azərbaycan - Rusiya əlaqələri davamlıdır

## *Prezident İlham Əliyev: " Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur"*

***Ölkəmizin davamlı inkişafının təmin olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət, o cümlədən, bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rol oynayır. Dövlət başçısı tərəfindən imzalanan dövlət proqramlarının və sərəncamların uğurla icrası böyük nailiyyətlərin əldə olunmasına səbəb olub. Hətta Azərbaycan siyasi və iqtisadi çəkisinə görə, dünyanın ən nəhəng ölkələri ilə müqayisə olunacaq dərəcədə işlər görüb.***




Dövlət başçısı Azərbaycanın müstəqil dövlət olaraq, bütün demokratik-hüquqi dövlət normalarına uyğun addımlar atır. Beynəlxalq münasibətlərin tənzimlənməsi, qarşılıqlı əməkdaşlıq sahəsində də mühüm tədbirlər və layihələr reallaşır. Bu gün Azərbaycan dünya ölkələri ilə münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurub və bu əlaqələr bir çox sahələri əhatə edir. Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daimi diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr, sazişlər imzalanıb. Bu münasibətlər bu gün yeni müstəvidədir. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə, mütəmadi olaraq, keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin daha da genişlənməsinə gətirib çıxarır. Bu günlərdə Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Azərbaycan Prezidentinin çıxışında vurğuladığı kimi, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Dövlət başçılarının və digər rəsmi şəxslərin müntəzəm görüşləri əməkdaşlığımızın dərinləşməsinə şərait yaradır: "Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, ən mühüm, ümdə məsələlərdə, ənənəvi olaraq, bir-birimizi dəstəkləyirik. Avropa Şurası Parlament Assambleyasının iyun sessiyasında Rusiyanın bu təşkilata qayıtması məsələsi müzakirə edilərkən Azərbaycan nümayəndə heyəti tam tərkibdə çıxış edərək, Rusiyanın AŞPA-ya qayıtmasının lehinə səs verdi".

Ölkələr arasında ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr, vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır.

### "AZƏRBAYCAN RUSİYAYA 1,2 MİLYARD DOLLAR, RUSİYA AZƏRBAYCANA 4,6 MİLYARD DOLLAR HƏCMİNDƏ SƏRMAYƏ QOYUB"

Dövlət başçısı çıxışında diqqətə çəkib ki, ticari-iqtisadi münasibətlərimizin inkişafında müsbət dinamika müşahidə olunur. Biz əmtəə dövriyyəsini hər il artırırıq: "Bu, get-gedə çətinləşir, çünki keçən il biz təqribən, 20 faiz artım barədə danışırdıqsa, bu il artım daha çox olub. Beş "Yol xəritəsi" çərçivəsində əməkdaşlığın prioritet istiqamətlərinin müəyyən edilməsi, şübhəsiz ki, ticari əlaqələrin daha da genişlənməsinə səbəb olacaq". Bu gün ölkəmizdə Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. "Azərbaycan Rusiyaya 1,2 milyard dollar, Rusiya Azərbaycana 4,6 milyard dollar həcmində sərmayə qoyub" deyə Azərbaycan Prezidenti vurğulayıb.

Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlıq da diqqəti çəkəndir. Dövlət başçısı Rusiyadan texnika alınması çərçivəsində ölkələr arasında artıq imzalanmış kontraktların məbləğinin 5 milyard dollar təşkil etdiyini və bunun 3 milyard dollarının, artıq reallaşdığını bildirib. Əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir ki, buna gəlincə, Prezident İlham Əliyev 2018-ci ildə "Şimal-Cənub Dəhlizi" vasitəsilə daşınmış yüklərin həcminin əvvəlki ildəkindən 8 dəfə çox olduğunu qeyd edib. "Həcmlər, hələlik, böyük deyil, lakin dinamika güclü təsir bağışlayır" deyən Cənab Prezident "Şimal-Qərb Dəhlizi"nin işə düşdüyünü və Rusiyadan yüklər Azərbaycan ərazisindən keçməklə, həm cənub, həm də qərb istiqamətində göndərildiyini bildirib: "Bu, çox cəhətdən onun sayəsində mümkün olur ki, biz tarif siyasətimizi razılaşdırmışıq və son vaxtlar Azərbaycanda müasir nəqliyyat infrastrukturuna böyük sərmayə yatırılıb".

### "TƏHSİLİN RUS DİLİNDƏ OLDUĞU 338 MƏKTƏBDƏ 130 MİN ŞAGİRD DƏ RUS DİLİNDƏ OXUYUR"

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasi kurs, bütün sahələrdə olduğu kimi, multikultural mühitin möhkəmlənməsi, o cümlədən, tolerantlıq ənənələrinin gücləndirilməsinə də töhfələrini verməkdədir. Azərbaycanın bugünkü inkişafı dünyaya, eləcə də, öz qonşularına açıq olmaqla, milli maraqlarını qorumağın nümunəsidir. Rusiya olan əlaqələrin davamlılığının göstəricisidir ki, son illərdə, Lomonosov adına MDU-nun və Seçenov adına Tibb Universitetinin filialları ölkəmizdə fəaliyyətdədir. Ölkəmizdə rus dilində təhsil verən 340-dan çox məktəb var. Üç mindən çox məktəbdə isə rus dili tədris olunur. Çıxışında təhsil sahəsində böyük uğurları qeyd edən dövlət başçısı Azərbaycanın bütün dövlət ali məktəblərində rus dili bölmələri olduğunu bildirib: "Ölkəmizdə 25 min tələbə rus dilində təhsil alır. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində oxuyur".

### "QARABAĞ AZƏRBAYCANDIR VƏ NİDA İŞARƏSİ"

BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdiyin bildirən dövlət başçısı, iyirmi beş ildən çoxdur ki, bu qətnamələrin yerinə yetirilmədiyini diqqətə çatdırıb: "BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır". Cənab Prezidentin qeyd etdiyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır.

Dövlət başçısı Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına da toxunub. "Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" Forumu çərçivəsində müvafiq cavab verilib" deyən Cənab Prezident bəyanatı sözbəsöz vurğulayıb: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

### "26 İLDİR Kİ, AZƏRBAYCAN XALQI SABİTLİK VƏ İNKİŞAF ŞƏRAİTİNDƏ YAŞAYIR"

Dövlət başçısı işğala, 1990-cı illərin əvvəlində ölkəmizdə hər səkkiz nəfərdən birinin qaçqın olduğu humanitar fəlakətə baxmayaraq, Azərbaycan böyük inkişaf və qurucuİuq yolu qət etdiyin də bildirib: " Ölkədə oyuncaq, xalqa zidd, satqın Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu müstəqilliyin ilk illəri istisna olmaqla, 26 ildir Azərbaycan sabitlik şəraitində yaşayır və burada əsas xidmət vətəndaş müharibəsinin qarşısını almış, işğalı dayandırmış, xaosun, dağıntının öhdəsindən gəlmiş və Azərbaycanı quruculuq yoluna çıxarmış Prezident Heydər Əliyevə məxsusdur. Beləliklə, 26 ildir ki, Azərbaycan xalqı sabitlik və inkişaf şəraitində yaşayır. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənir. Bunun göstəricilərindən biri bir neçə il əvvəl ölkəmizin 155 dövlətin səsi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir".

Ölkəmiz 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gələrək, qazandığı biri-birindən əhəmiyyətli uğurları ilə dünyanın diqqətindədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rusiya paytaxtında VIII Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi açılıb

*Sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib*







***Oktyabrın 29-da Rusiya paytaxtında VIII Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi açılıb. AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. Rusiya Dövlət Tretyakov Qalereyasında keçirilən sərgi "Məkan oriyentasiyası" mövzusuna həsr olunub. Müasir İncəsənət Biennalesində 11 ölkədən 34 rəssamın 50-dən çox əsəri nümayiş etdirilir. Ekspozisiyada Azərbaycan rəssamları Orxan Məmmədovun "Estetikanın saxlanması ideyası" və Leyla Əliyevanın "Əbədiyyət" multimedia installyasiyaları təqdim olunur. Orxan Məmmədovun təqdim etdiyi installyasiya da müxtəlif dövrlərə aid 50-dən çox Azərbaycan xalçasının naxışları toplanıb. Rəssamın süni intellektdən istifadə edərək hazırladığı art-obyektdə naxışlar bir-birini əvəzləyir.***





Leyla Əliyevanın rəhbərliyi ilə 20 nəfərdən ibarət yaradıcı kollektivin videoart janrında hazırladığı "Əbədiyyət" əsərində insan cəsarətindən söhbət açılır.

İlk dəfə olaraq Moskva Biennalesinin tərəfdaşı dünyanın ən sanballı qrafik əsərlər toplusu olan Avstriyanın məşhur Albertina muzeyidir. Sərgidə XX əsrin 11 məşhur rəssamının muzeydə saxlanılan əsərləri ümumi mədəni məkanda nümayiş etdirilir. Biennalenin əsas layihəsinin kuratoru Moskvadakı "Federasiya" və "Moskva-Siti" komplekslərinin müəllifi Dmitri Çernyakov bir neçə pavilyonda müxtəlif mövzu və janrları kiçik kapsullarda və evlərdə ümumi dialoqda birləşdirib. Onun sözlərinə görə, bütün bu müxtəlifliyi bir-biri ilə uzlaşdırmaq heç də asan deyil. Bu səbəbdən sərgi "Məkan oriyentasiyası" adlandırılıb. Biennaledə Rusiya, Avstriya, Bəhreyn, Almaniya, Səudiyyə Ərəbistanı, İtaliya, Almaniya, Çin, Niderland, ABŞ, Fransa rəssamları da iştirak edirlər.

Sərgi müddətində SSRİ Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Tahir Salahov haqqında filmin çəkilişləri aparılacaq. Film klassik və müasir incəsənət arasında əlaqələrdən bəhs edən maarifləndirmə proqramı çərçivəsində nümayiş olunacaq. Sərgi yanvarın 22-dək davam edəcək.

# Bakıda Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin təqdimatı keçirilib







***Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yeni brendi olan SƏLİS - Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev SƏLİS barədə ətraflı məlumat verib.***

Bildirib ki, bu sistem vətəndaş cəmiyyətinin inkişafında yeni keyfiyyət mərhələsinin əsasını qoyan innovativ tətbiqdir. Onu yaratmaqda məqsəd qeyri-hökumət təşkilatlarına dövlət dəstəyini müasir dövrün tələblərinə uyğun şəkildə təşkil etmək, QHT-dövlət münasibətlərində yeni əməkdaşlıq modelini formalaşdırmaq, Şuranın fəaliyyətində şəffaflığı, hesabatlılığı və səmərəliliyi daha da artırmaq, ictimai nəzarəti və qərar qəbulu prosesində vətəndaşların iştirakını təmin etməkdən ibarətdir. Şura Prezident İlham Əliyevin elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı, həmçinin dövlət qurumlarının göstərdiyi elektron xidmətlərin təkmilləşdirilməsi ilə əlaqədar imzaladığı fərman və sərəncamları rəhbər tutaraq, göstərilən xidmətləri tam elektronlaşdırmaq və keyfiyyətini yaxşılaşdırmaq məqsədilə 2019-cu ildə 20 yeni elektron xidmət istifadəyə verib. Bununla da elektron hökumətə keçid tam başa çatdırılıb. Bu xidmətlər Sürətli Əlaqələndirmə və Layihələri İdarəetmə Sistemi adı altında elektron bazada birləşdirilib. Sonra Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin fəaliyyət istiqamətlərinə dair videoçarx nümayiş olunub.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, dövlətimizin inkişafının təməl prinsiplərini ulu öndər Heydər Əliyev müəyyən edib. 1993-2003-cü illər dövlət quruculuğu baxımından çox əhəmiyyətli dövr idi. Bu dövrdə bir sıra qlobal layihələr reallaşdırıldı, beynəlxalq əlaqələrin qurulması baxımından mühüm addımlar atıldı. 2003-2006-cı illər Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin modernləşdirilməsi dövrü, yeni trendlərlə zəngin tarixi dönəmdir. Həmin dövrdə vətəndaş məmnunluğu ən ümdə dövlət prioritetlərindən biri olub. 2007-2008-ci illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə iki mühüm konsepsiya qəbul edildi. Bunlardan birincisi QHT-lərə, yəni, vətəndaş təşəbbüslərinə dəstək konsepsiyası idi. Bu konsepsiyanı reallaşdırmaq üçün QHT-lərə Dövlət Dəstəyi Şurası yaradıldı. Digər konsepsiya isə KİV-lərin inkişafına dövlət dəstəyi konsepsiyası və bununla bağlı Fondun (KİVDF) yaradılmasıdır. "Mən bu gün Şura və Fondun fəaliyyətlərini müqayisə etmək istəmirəm. Amma görünən budur ki, Şura elektron xidmətə KİVDF-dən əvvəl keçdi. Bu, yaxşı nümunədir. Düşünürəm ki, KİVDF də bundan sonra KİV-lərə göstərilən dəstəyi təmas olmadan, elektron hökumət vasitəsilə həyata keçirə, bu xidməti yarada bilər" - deyə Əli Həsənov əlavə edib.



Prezidentin köməkçisi diqqətə çatdırıb ki, vətəndaş məmnunluğunun təməlində sosial-iqtisadi və digər problemlərin həlli, firavan həyatın, təhlükəsizliyin təmin olunması, təşəbbüslərin dəstəklənməsi dayanır. Yeni yaradılan xidmətlərin, o cümlədən bu gün təqdimatı keçirilən SƏLİS-in də məqsədi vətəndaş cəmiyyəti quruculuğuna töhfə verməkdir.

Əli Həsənov qeyd edib ki, 2018-ci il prezident seçkilərindən sonra Prezident İlham Əliyev yeni islahatlar kursuna başlayıb. Bu kursun əsasını ictimai, siyasi, sosial, iqtisadi həyatımızın şəffaflaşdırılması təşkil edir. Bütün postsovet ölkələrində, o cümlədən dünya ölkələrində olduğu kimi, Azərbaycanda da hələ kölgə iqtisadiyyatı mövcuddur. Hələ də bəzi iş adamları dövlətin vergilərini tam şəkildə ödəmirlər, ayrı-ayrı sahələrdə inhisarçılıq var. Prezident İlham Əliyev iqtisadi müşavirədə bu məsələlərə toxundu. İslahatlar kursu, Azərbaycan cəmiyyətinin, iqtisadiyyatının, siyasətinin, sosial həyatının bütün sahələr üzrə şəffaflaşdırılması, kölgədən çıxarılması dövlətin iradəsidir və bu iradəyə qarşı çıxanlar cəzalandırılacaq. Prezident İlham Əliyevin həyata keçirdiyi, əsasını şəffaflaşdırma təşkil edən islahatlar kursu dövlət idarəçilik sisteminin struktur islahatlarından, idarəçilik sisteminin təkmilləşdirilməsindən başladı. Zərurəti şübhə doğuran qurumların ləğv olunması, birləşdirilməsi, orada çalışan insanların digər lazım olan sahələrə yerləşdirilməsi həyata keçirildi. Bunun ardınca iqtisadi islahatların konturları elan olundu. Dövlət büdcəsindən tutmuş xidmət sahələrinə, vergi yığımından tutmuş sahibkarlıq sahəsinə qədər həm struktur, həm dövlət idarəçilik sisteminin, o cümlədən sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi həyata keçirilir.

Milli Məclis sədrinin müavini Bahar Muradova SƏLİS layihəsinin şəffaflığın təmin olunması istiqamətində böyük addım olduğunu deyib. Qeyd edib ki, şəffaflığın təmin olunması ilə bağlı Azərbaycanda dövlət səviyyəsində iş aparılır. Bununla bağlı qanunlar qəbul edilib. "QHT-lərin fəaliyyətindəki bəzi çatışmazlıqların aradan qaldırılması üçün mükəmməl elektron xidmət yaradılıb. Burada elektron vətəndaş və elektron apelyasiya xidmətini xüsusi qeyd etmək lazımdır. Bu gün hər bir vətəndaşın, QHT nümayəndəsinin bütün qurumlarla əlaqələri elektron formatda şəffaf şəkildə təmin olunur. Ölkəmizdə vətəndaş cəmiyyətinin yüksək səviyyədə fəaliyyəti üçün dövlətimizin başçısı güclü siyasi iradə nümayiş etdirir. SƏLİS layihəsi vasitəsilə bütün donor təşkilatların cəlb edilərək ideyaların irəli sürülməsi, layihələrin hazırlanması, maliyyə vəsaitinin ayrılması, xərclənməsi, apelyasiyadan keçməsi məsələləri vətəndaşların diqqəti və nəzarəti altında olacaq. Vətəndaş cəmiyyəti qurumları, problemlərin həllini üzərinə götürən insanlar məsuliyyəti özləri daşıyacaqlar," - deyə Bahar Muradova vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib ki, SƏLİS həm dövlətin, həm də vətəndaşların mənafeyinə cavab verir. Bu sistem vasitəsilə vətəndaşlar Şuranın xidmətlərindən fasiləsiz istifadə edə biləcəklər. Ülvi Mehdiyev bildirib ki, SƏLİS əlçatanlığı və şəffaflığı təmin edir. Sistem müasir idarəetməyə tam uyğundur.

BMT-nin Azərbaycan üzrə rezident əlaqələndiricisi Qulam İshaqzai Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sistemini vətəndaş cəmiyyətinin fəaliyyətində şəffaflığın təmin olunması baxımından əhəmiyyətli addım kimi dəyərləndirib. Bu istiqamətdə göstərilən bütün səylərin BMT tərəfindən yüksək qiymətləndirildiyini bildirən Qulam İshaqzai deyib: "SƏLİS və bu tipli digər layihələrə dəstək verməyə hazırıq. Ümid edirik ki, bu sistem özünü doğruldacaq". Sonda Sürətli Əlaqələndirmə və Layihələrin İdarəetmə Sisteminin yaradılmasında iştirak edən şəxslərə Fəxri diplomlar təqdim olunub.

## Dövlət Agentliyinin sədri YAP İcra Katibliyində partiyanın gənc üzvləri ilə görüşüb






Oktyabrın 30-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev partiyanın gənc üzvləri ilə görüşüb. Görüşdə YAP İcra Katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, millət vəkilləri, partiyanın gənc üzvləri iştirak ediblər.

## Hikmət Hacıyev: “ABŞ Nümayəndələr Palatasının qondarma “erməni soyqırımı” haqqında qətnaməsini qərəzli və ədalətsiz hesab edirik”



ABŞ Nümayəndələr Palatasının qondarma “erməni soyqırımı” haqqında qəbul etdiyi 296 saylı qətnaməni pisləyir, qərəzli və ədalətsiz hesab edirik. Bu qətnamənin heç bir siyasi, hüquqi və tarixi əsası yoxdur, ermənipərəst lobbi qruplarının səyləri nəticəsində qəbul edilib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, həmin dövrdə baş vermiş hadisələr siyasətçilər deyil, tarixçilər tərəfindən araşdırılmalıdır. Ermənistan və erməni lobbi dairələri qondarma “erməni soyqırımı”nı siyasi möhtəkirlik obyektinə çeviriblər. Onlar bu məqsədlə ermənilərin Cənubi Qafqazda və digər regionlarda törətdikləri cinayətləri ört-basdır etməyə çalışırlar. Ona görə də Ermənistan həmin dövrün hadisələrinin Birgə tarixi komissiya tərəfindən araşdırılması barədə Türkiyənin təklifini qəbul etmir. Tarixin saxtalaşdırılması, “tarixin yenidən yazılması” cəhdləri və onun siyasi təzyiq məqsədilə istifadə edilməsi qəbuledilməzdir.

## “Növbəti Beynəlxalq Astronavtika Konqresinin Azərbaycanda keçirilməsi ölkəmizin siyasi nüfuzunun göstəricisidir”

**Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ölkəmizə olan etimadın növbəti göstəricisi oldu.**



Bu sözləri AZƏRTAC-a Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə bildirib ki, bu konqres müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirlərdəndir. Məhz növbəti Beynəlxalq Astronavtika Konqresinin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun daha bir təzahürü, Azərbaycana olan inamın nəticəsidir: “Əlbəttə ki, belə bir qərarın verilməsi təsadüfi xarakter daşımır. Azərbaycan son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində bir çox uğurlar əldə edib. Hazırda ölkəmizin 3 peykinin olması və kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində atılan ardıcıl və məqsədyönlü addımlar deyilən fikrin əyani sübutudur. Hətta, bu gün Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir”.

“İki sahil” qəzetinin baş redaktoru qeyd edib ki, beynəlxalq əhəmiyyətli bir konqresin Azərbaycanda keçirilməsi ilə bağlı qərarın verilməsi heç də asan başa gəlməyib: “Çünki növbəti Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi üçün Bakı ilə yanaşı, dünyanın tanınmış meqapolislərinin - Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərlərinin də namizədliyi gözdən keçirilib. Sinqapur dünyanın ən inkişaf etmiş ölkələrindən birinin paytaxtıdır. Bu ölkə iqtisadı göstəricilərinə görə bəzi sahələrdə hətta Avropa dövlətlərini belə geridə qoyur. Rio-de-Janeyro Braziliyanın, Dehli isə Hindistan kimi inkişaf etmiş dövlətlərin şəhərləridir. “Böyük iyirmilik”ə daxil olan bu ölkələrin yuxarıda adları çəkilən şəhərlərinin deyil, Azərbaycanın paytaxtı Bakı şəhərinin növbəti Beynəlxalq Astronavtika Konqresinin keçirilməsi üçün seçilməsi çox mühüm məqamlardan xəbər verir. Bu qərar bir daha sübut edir ki, Azərbaycana inanırlar, etibar edirlər. Azərbaycan “Eurovision” mahnı müsabiqəsinə, I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, Qadınlar arasında futbol üzrə dünya çempionatına, Formula-1 yarışlarına, şahmat, gimnastika, cüdo üzrə dünya birinciliklərinə, futbol üzrə Avropa Liqasının final oyununa yüksək səviyyədə ev sahibliyi edib. Bütün tədbirlər yüksək təşkilatçılıq və təhlükəsizlik şəraitində reallaşıb. Ona görə də Sinqapur, Braziliya və Hindistan kimi rəqiblər arasında Azərbaycana üstünlük verilməsi həm ölkəmizə olan etimadın, həm də inamın göstəricisidir”.

V.Rəhimzadə xatırladıb ki, 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresi Sovet İttifaqında - Bakıda keçirilib. Hələ o zaman ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri kimi böyük səylər göstərib ki, Sovet İttifaqında bu konqres məhz Bakıda keçirilsin: “Məhz təxminən 50 ildən sonra müstəqil Azərbaycanda, yenidən Bakı şəhərində bu Konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. Ən böyük fərq isə ondan ibarət olacaq ki, Azərbaycan müstəqil dövlət kimi bu böyük tədbirə ev sahibliyi edəcək”.

Baş redaktor əlavə edib ki, konqresdə iştirak üçün Azərbaycana 6-7 min qonağın gəlişi gözlənilir: “Əminəm ki, Azərbaycan yenidən yüksək təşkilatçılıq qabiliyyətini göstərəcək və 2022-ci ildə keçiriləcək növbəti Beynəlxalq Astronavtika Konqresi uzun müddət yaddaşlarda qalacaq”.

## “Azərbaycan Ermənistan üzərində əzici üstünlüyə malikdir”

**“”Valday” Beynəlxalq Diskussiya klubunda MDB dövlət başçılarının Astana Sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarında Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan ərazilərini 25 ildən artıq bir müddətdə işğal altında saxlamasına qarşı sərt münasibəti, diplomatik təzyiqi, Türkdilli dövlətlərin və Qoşulmama Hərəkatının Bakıda keçirilən zirvə toplantılarında Ermənistanın işğalçı siyasətinin pislənməsi, Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsi və hər iki beynəlxalq təşkilata növbəti dövr üçün sədrliyin Azərbaycana həvalə olunması 2019-cu il Azərbaycan dövlətinin diplomatik uğurları beynəlxalq nüfuzunu daha da möhkəmlənməsi, Azərbaycan Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yeni keyfiyyət dəyişikliyi və yeni mərhələnin başladığının göstəricisidir”. Bunu “Resurs” Analitik İnformasiya Mərkəzinin sədri, siyasi ekspert Rasim Quliyev SİA-ya açıqlamasında deyib.**



Siyasi ekspert bildirib ki, əslində Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Paşinyan iqtidarının mövqeyini gözləyən Azərbaycan diplomatiyası Ermənistanın mövcud iqtidarının ziddiyyətli və ardıcıl olmayan, bir-birini təkzib edən ziddiyyətli bəyanatları fonunda diplomatik təzyiqi artıraraq yaranmış yeni şəraitdə Ermənistana əzici güc göstərmək iqtidarında olduğunu nümayiş etdirməyə başlayıb: “Hüquqi diplomatik müstəvidə, bütün beynəlxalq platforma və formatlarda haqlı mövqeyini sübut edən Azərbaycanın hərbi qüdrəti də Ermənistanla müqayisə olunmaz dərəcədə üstündür. Ermənistan iqtidarı da, mütəxəssis və ekspertləri də, erməni ictimaiyyəti də açıq-aydın bu istiqamətdə irəliləyişin heç aprelə qədər də uzanmayacağından və bu dəfəki apreldə “araya girən” arbitrlərin də o qədər həvəsli olmayacağını aydın dərk edirlər. Yeni aprel savaşı baş versə Azərbaycanın Ermənistanla sülh danışıqlarının Dağlıq Qarabağın ətrafında işğal olunmuş 7 rayonunun qaytarılmasından sonrakı mərhələlərdən aparacağı bəllidir. Bunu dərk edən Ermənistan iqtidarı boğulmaqda olanın “əl-qol çabası, səyləri” göstərərək həm hakimiyyəti itirmək təhlükəsi qarşısında daxili auditoriyaya hesablanmış isterik bəyanatla Qoşulmama Hərəkatı kimi 120 dövləti özündə cəmləyən, dünyanın yarıdan çox hissəsini əhatə edən böyük bir beynəlxalq qurumu hədələyir. Bu təkcə xarici siyasətin uğursuzluğu və Ermənistanın Qarabağ münaqişəsində iflasının göstəricisi deyil. Eyni zamanda Ermənistanın mövcud iqtidarının beynəlxalq münasibətlər sistemində naşılığı və savadsızlığının göstəricisidir. Ermənistanın mövcud hakimiyyəti daxili, siyasi gərginliyi, Dağlıq Qarabağın işğalçı rejimi ilə keçmiş iqtidarın kadrları ilə idarəçiliyin elə keçirilməsi uğrunda mübarizədə üzləşdiyi problemləri həll etməkdə çətinlik çəkir və bu problemlərdən diqqəti yayındırmaq üçün populist və isterik addımlar atır ki, nəticə isə daha da pisləşməyə doğru gedir”.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

31 oktyabr 2019-cu il

# Qoşulmama Hərəkatının fəaliyyətində yeni mərhələ başlayır

## Prezident İlham Əliyev: "Qoşulmama Hərəkatı çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür"




***Mövcud faktlar və reallıqlar ondan ibarətdir ki, Azərbaycan bir sıra beynəlxalq miqyaslı konfrans, forum, seminar və digər mühüm tədbirlərin keçirildiyi məkan olaraq tanınır. Dəfələrlə nüfuzlu idman yarışları, musiqi festivalları, ədəbi-bədii müsabiqələr ölkəmizdə keçirilib. Beynəlxalq təşkilatlarda Azərbaycan acıq şəkildə mövqeyini bildirir, sülhün və əmin-amanlığın qorunub-saxlanması işinə layiqli töhfə verir, beynəlxaq terrorizmlə mübarizədə və digər qlobal məsələlərin həllində yaxından iştirak edir. Bu baxımdan, dünya siyasi səhnəsində Azərbaycanın irəli sürdüyü təkliflər və ideyalar mübahisə mövzusu olmadan, birmənalı şəkildə dəstəklənir. Bəzən aparıcı dövlət başçıları Prezident İlham Əliyevə zəng edərək, Ondan hansısa məsələ ilə bağlı dəstək istəyirlər. Elə bu günlər Fransa Respublikasının Prezidenti Emmanuel Makron onun təşəbbüsü ilə yaradılan QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fonda Azərbaycan tərəfinin dəstək verməsini Azərbaycan Respublikası Prezidenti İlham Əliyevdən xahiş edib. Prezident İlham Əliyev Fransa Prezidentinin bu təşəbbüsünə öz dəstəyini ifadə edib və Azərbaycan tərəfinin bu xəstəliklərlə mübarizə işinə əhəmiyyətli töhfə verməyə hazır olduğunu bildirib.***

### Zirvə Görüşünün Bakıda keçirilməsi dünyada Azərbaycanın nüfuzunun daha da möhkəmlənməsinə təkan olacaq

Məhz bu cür münasibətlərin artan xətlə inkişaf etməsinin nəticəsidir ki, erməni lobbisinin daha çox kök saldığı Fransadan Ermənistana zərbə olan addımlar atılır. Misal olaraq Fransadakı Lion İnzibati Məhkəməsinin ölkənin Vilörban şəhəri ilə işğal altındakı Azərbaycan şəhəri Şuşa arasında imzalanmış qanunsuz "qardaşlıq" müqaviləsini ləğv edib. Çıxarılan məhkəmə qərarında deyilir ki, müqavilə Fransanın beynəlxalq öhdəlikləri nəzərə alınmadan imzalanıb və qanunsuzdur. Şübhə yoxdur ki, ölkəmizin uğurlu nailiyyətləri praqmatik və rasional xarici siyasət aparılması nəticəsində əldə olunub. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dünya birliyinə sıx inteqrasiya olunmaq xəttinə əsaslanır Bununla da, Azərbaycan regional güc mərkəzi kimi beynəlxalq mövqelərini möhkəmləndirir.Tam qətiyyətlə demək olar ki, oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatının Zirvə Görüşünün keçirilməsi dünyada Azərbaycanın nüfuzunun daha da möhkəmlənməsinə təkan olmaqla, imicinə böyük faydadır. Xatırladaq ki, Qoşulmama Hərəkatı 1955-ci ildə İndoneziyada keçirilən Bandunq konfransında təklif olaraq irəli sürülüb. Qoşulmama Hərəkatına birinci sammitinin hazırlıq mərhələsi 1961-ci il iyunun 5-12-də Misirin Qahirə şəhərində keçirilmişdir. Hərəkat 1961-ci ildə Yuqoslaviyanın Belqrad şəhərində 25 ölkə başçısının iştirakı ilə Yuqoslaviya Prezidenti İosif Broz Tito, Hindistanın ilk Baş naziri və Prezidenti Cəvahirləl Nehru, Misir Prezidenti Camal Əbdül Nasir, İndoneziya Prezidenti Sukarno, Qananın ilk Baş naziri və Prezidenti Nkrume Kvamenin təşəbbüsü ilə yaradılmışdır. Qoşulmama Hərəkatı BMT təşkilatı üzvlərinin, təxminən, üçdə ikisini, dünya əhalisinin isə 55 faizini təşkil edir. Qoşulmama Hərəkatının geosiyasi əhəmiyyəti BMT-də gözlənilən islahatların aparılmaması ilə daha da çoxalıb. Belə ki, onu alternativ fəaliyyət meydanı kimi qəbul ediblər. Təsadüfi deyil ki, son 25 il ərzində hərəkata üzv dövlətlərin sayı 99-dan 120-yə yüksəlib. 17 dövlət və 10 beynəlxalq təşkilat hərəkat yanında müşahidəçi statusuna malikdir. Azərbaycan Respublikası Qoşulmama Hərəkatına 2011-ci ildə üzv seçilib. 2018-ci ildə Bakıda Qoşulmama Hərəkatının "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusundakı konfransı keçirilib. Konfransda çıxış edən Prezident İlham Əliyev qeyd etmişdir ki, dünyada birliyə və bərabərliyə nail olunmalıdır: "Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda, demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik". Bakı şəhərində "Bandunq Prinsiplərini" rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar. Zirvə Görüşündə, ümumilikdə, 2 minə yaxın nümayəndə iştirak edib. Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Zirvə Görüşündə iştirak etmiş BMT Baş Assambleyasının sədri Ticani Məhəmməd-Bande Qoşulmama Hərəkatını "ağlın səsi" adlandırıb. Onun sözlərinə görə, Qoşulmama Hərəkatı və BMT-nin fundamental insan hüquqlarına, həmçinin dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət etmək kimi ortaq hədəfləri var. Ticani Məhəmməd-Bande müdriklik və yumşaqlıq örnəyi adlandırdığı hərəkat iştirakçılarını çətinliklərə rəğmən, BMT-nin Nizamnaməsinə uyğun şəkildə sülh, tərəqqi və ədalət naminə fəaliyyət göstərməyə çağırıb. Qoşulmama Hərəkatına sədrlik etmiş Venesuela-Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Zirvə Görüşündə çıxış edərək Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür etmiş və sədrliyi dövründə Qoşulmama Hərəkatının böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin güclənməsinə xidmət göstərdiyini bildirmişdir. Nikolas Maduro növbəti 3 il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan edib. Beləliklə, 2019-2022-ci illərə Qoşulmama Hərəkatının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev seçilib. Prezident İlham Əliyev Zirvə Görüşündə çıxışında Qoşulmama Hərəkatının fəaliyyətində Azərbaycanın sülhə və təhlükəzsizliyə verdiyi layiqli töhfəni bütün dünyaya bəyan etdi.

### "Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir"

Dövlətimizin başçısı İlham Əliyev çıxışında bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi dövründə digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcək: "Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan, Qoşulmama Hərəkatı çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür. Bu mənada, keçən ay Azərbaycanın "77-lər qrupu"na qoşulması sosial-iqtisadi sahədə beynəlxalq miqyasda səylərimizi daha da artırmağa imkan verir. Dövlətlərin maraqlarının BMT çərçivəsində birgə səylərlə müdafiə olunması xüsusi əhəmiyyət kəsb edir. Ən az inkişaf etmiş, dənizə çıxışı olmayan, kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusi diqqət yetirilməlidir. Azərbaycan 2005-ci ildən etibarən 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərib. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahə-

# Qoşulmama Hərəkatının fəaliyyətində yeni mərhələ başlayır

## Prezident İlham Əliyev: “Qoşulmama Hərəkatı çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür”

lərdə layihələr həyata keçirir.

Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədi ilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc bu proqramdan faydalanır”. Prezident İlham Əliyev çıxışında Azərbaycanın müstəqillik tarixində əldə etdiyi uğurlardan və Ermənistanın işğalçılıq siyasətindən də danışıb. Bildirib ki, Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı var: “Bir həftə öncə - oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon - ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin, təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə, ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür”. Prezident İlham Əliyev onu da qeyd etmişdir ki, Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir: “Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur. 2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla altı azərbaycanlı mülki şəxs həlak olmuş, 26-sı yaralanmışdır, yüzlərlə ev dağıdılmışdır. Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır”. Cənab Prezident Azərbaycanın əldə etdiyi sosial-iqtisadi nailiyyətlərdən danışarkən bildirmişdir ki, Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur: “Dünya Bankının 2020-ci il üzrə “Doing Business” hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir”. “Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir” deyən Prezident İlham Əliyev onu da qeyd edib ki, multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. On bir il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız “Bakı Prosesi” təşəbbüsü BMT tərəfindən də dəstəklənir: “BMT-nin Baş katibi Antonio Quterreş “Bakı Prosesi”ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. “Bakı Prosesi”nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumu, artıq BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınmışdır”. BMT-dən sonra dünyada ən böyük təşkilat olan Qoşulmama Hərəkatına Azərbaycan Prezidenti İlham Əliyevin sədr seçilməsi o deməkdir ölkəmiz dünyada haqq işini daha geniş və əsaslı şəkildə dünya xalqlarına bə dövlətlərinə çatdıra biləcək. Azərbaycanın apardığı fəal və uğurlu xarici siyasətin göstəricisi olaraq Dağlıq Qarabağ münaqişəsi istiqamətində mühüm diplomatik uğur əldə ediləcək. Bu əminlik Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu strategiya və Prezident İlham Əliyevin əzmlə və qətiyyətlə yürütdüyü siyasət bunu deməyə əsas verir.

### Uğursuz erməni siyasəti bu dəfə də özünü göstərdi

Rusiyalı ekspert və teleaparıcı Yevgeni Mixaylov bildirib ki, Prezident İlham Əliyevin sədr seçilməsi Qoşulmama Hərəkatının fəaliyyətinin güclənməsinə imkanlar yaradacaq: “Aydındır ki, Prezident İlham Əliyevin Sədrliyi ilə bu tədbirin keçirilməsi, ilk növbədə, təşkilatın ruhuna sadiqliyi baxımından, Azərbaycanın xidmətlərinin tanınmasını göstərir. Yəni ölkə prinsipial mövqe tutaraq digər ölkələrlə hərbi bloklarda yer almır və bununla da, tam müstəqil mövqe sərgiləyir. Azərbaycan kiminlə dostluq edib-etməyəcəyinə özü qərar verir. Eyni zamanda, bu cür müstəqil mövqe bəzi ölkələri qıcıqlandırır, bəzi ölkələrdə isə hörmət doğurur və onlar başa düşürlər ki, bu ölkə ilə bərabər səviyyədə danışmaq lazımdır. Azərbaycan öz müstəqil siyasəti ilə regionda və dünyada nüfuza və hörmətə malikdir. Belə irimiqyaslı sammitin, məhz Bakıda keçirilməsi və sədrliyin dörd il ərzində regionun aparıcı dövlətinə həvalə edilməsi bunun göstəricisidir”. Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, Qoşulmama Hərəkatının Azərbaycan üçün önəmini artıran amillərdən biri də bu təşkilatın prinsiplərinin ölkəmizin xarici siyasət prioritetləri ilə tam üst-üstə düşməsidir. Hərəkat dövlətlərin ərazi bütövlüyü məsələsində birmənalı mövqe nümayiş etdirir, beynəlxalq hüququn təməl prinsiplərindən çıxış edir. Azərbaycanın Qoşulmama Hərəkatında üzvlüyünün ilk günlərindən bu təşkilat ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını, birmənalı şəkildə dəstəkləyib, qəbul olunmuş bütün sənədlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, məhz həmin prinsiplər əsasında nizamlamağa çağırıb. Bu fakt 2019-cu ilin iyul ayında Qoşulmama Hərəkatı təşkilatının Nazirlər Şurasının iclasında qəbul olunmuş yekun sənədə də öz əksini tapıb. Nəticə etibarilə dünyanın 120 dövləti, yəni planetin təqribən üçdə iki hissəsi Azərbaycanın ədalətli mövqeyinə öz dəstəyini ifadə edib. Bir sözlə, tam qətiyyətlə qeyd etmək olar ki, Bakıda keçirilən Qoşulmama Hərəkatının 18-ci Zirvə Görüşündə Azərbaycan böyük diplomatik uğura imza atıldı. İştirakçıların yekdil qərarı ilə bir daha Ermənistan işğalçı dövlət olaraq tanınması barədə qərar qəbul olundu. Bu qərar Ermənistana növbəti zərbə olmaqla yanaşı, Azərbaycanın haqq işinin demokratik düşüncəli dünya xalqları və dövlətləri tərəfindən tanınması deməkdir. Gözlənildiyi kimi, işğalçı Ermənistan Qoşulma Hərəkatının Bakıda keçirilməsindən və Zirvə Görüşündə Azərbaycanın maraqlarına tam cavab verən qərararların qəbul edilməsindən küçə təfəkkürünə və barbar düşüncəsinə uyğun mövqe ortaya qoyub. Ermənistanın hərbi xuntasının Xarici İşlər Nazirliyi Qoşulma Hərəkatının üzvlərini məsuliyyətsizlikdə və hörmətsiz davranış göstərməkdə ittiham edib. Bu fakt Ermənistanın hakim rejiminin, xüsusilə də, küçə “demokratı” Paşinyanın son dərəcə carəsiz və ümidsiz vəziyyətdə olduğunu göstərir. Azərbaycan isə siyasi, iqtisadi, hərbi, bir sözlə, düşməninin bağrını çatladıb, dostu sevindirən uğurlarını davam etdirir.

***Sona Həmidova,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru***

## Hulusi Kılıç: “Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü və Azərbaycanın bu təşkilata sədrliyə başlaması tarixi hadisədir”



Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşü və Azərbaycanın bu təşkilata sədrlik etməsi bütün türk dünyası üçün tarixi hadisədir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Türkiyənin ölkəmizdəki keçmiş səfiri Hulusi Kılıç bildirib. Hulusi Kılıç deyib: “Bu barədə danışmazdan əvvəl qeyd etməliyəm ki, oktyabrın 15-də Azərbaycan Türk Şurası Dövlət Başçılarının VII Zirvə Görüşünə də böyük uğurla ev sahibliyi etdi. Hazırda dünyada ikinci bir dövlət yoxdur ki, bir ay içərisində ardıcıl olaraq iki belə böyük tədbirə ev sahibliyi etsin və onları yüksək təşkilatçılıqla keçirsin. Bundan başqa, Azərbaycan keçmiş Sovet İttifaqı məkanında yeganə ölkədir ki, dövlət müstəqilliyinin iyirminci ildönümündə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasında təmsil olunarkən fəallığı və qətiyyətli mövqeyi ilə dünya birliyinin rəğbətini qazandı. Əminliklə deyə bilərəm ki, Qoşulmama Hərəkatına sədrlik statusunun əldə edilməsində məhz BMT Təhlükəsizlik Şurasındakı uğurlu fəaliyyətin müstəsna rolu var. Bütün bunlar ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində baş verir. Burada həm dəqiq hədəflərə hesablanan xarici siyasət, həm də çevik diplomatiya var”.

Hulusi Kılıç bildirib ki, Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları Ermənistanın təcavüzkar ölkə olduğunu bir daha təsdiq etdilər və işğal faktını kəskin şəkildə pislədilər. Dağlıq Qarabağın və ətraf rayonların işğal altında saxlanılması Qoşulmama Hərəkatının prinsiplərinə (Bandunq prinsipləri) həqarətdir. Səfir bildirib ki, Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan üç il müddətində beynəlxalq və regional problemlərin həllinə böyük töhfə vermək şansı qazanıb. Bu müddətdə Azərbaycan həm dünyada sülh, sabitlik və inkişaf tərəfdarı olduğunu nümayiş etdirəcək, həm də Qoşulmama Hərəkatına üzv ölkələrlə ikitərəfli münasibətlərini inkişaf etdirəcək. Azərbaycandakı mövcud idarəetmə, güclü siyasi iradə, xalqın dövlətə dəstəyi, çevik diplomatiya mexanizmi, günbəgün artan iqtisadi imkanlar və resurslar sədrlik missiyasının müvəffəqiyyət qazanmasının önəmli şərtləridir. Hulusi Kılıç bütün bu uğurlar münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib.

## DSX: Ermənistan silahlı qüvvələrinin bölmələri Qazaxda bir neçə kəndi və döyüş mövqelərimizi atəşə tutub




Oktyabrın 29-da axşam saatlarından başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin bölmələri Qazax rayonunun bir neçə kəndi və sərhəd döyüş mövqelərimiz istiqamətində atəşkəs rejimini davamlı surətdə pozublar.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bütün hallarda düşmən bölmələrinin atəş nöqtələri cavab atəşi ilə susdurulub. Məlumatda qeyd edilib ki, atəşkəs rejiminin Azərbaycan tərəfindən pozulması barədə Ermənistan mətbuatının məlumatları həqiqətə tam ziddir. Hərbi qulluqçularımız tərəfindən qarşı tərəfin təxribatına cavab olaraq düşmən mövqelərinə atəş açılıb. Ermənistan silahlı qüvvələrindən fərqli olaraq yaşayış məntəqələri istiqamətində və mülki şəxslərə qarşı silah tətbiq olunmayıb.

# Paytaxtımız daha bir nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi edəcək

## Prezident İlham Əliyev: "Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi növbəti böyük qələbəmizdir"



***"Bir neçə gün bundan əvvəl, Vaşinqtonda keçirilmiş Beynəlxalq Astronavtika Konqresində növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu, çox böyük hadisədir, bizim böyük qələbəmizdir..." Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbulu zamanı bildirib: "Bilirəm ki, "Azərkosmos" və digər dövlət qurumları bu konqresin Azərbaycanda keçirilməsi üçün böyük səylər göstərmişlər. Bu konqres yeni və müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, konqresin işində Amerikanın vitse-prezidenti cənab Pens iştirak etmişdir".***

Növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi ölkəmizin böyük siyasi nüfuza malik olmasının göstəricisidir. Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri sırasındadır. Ölkəmiz öz gözəlliyinə, inkişafına və digər keyfiyyətlərinə görə diqqət mərkəzindədir. Ölkəmiz son illər, ardıcıl olaraq, çox nüfuzlu beynəlxalq tədbirlərə, toplantılara ev sahibliyi edir. Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günügündən daha da sarsılmaz edir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin dövlət maraqlarımıza uyğun formada keçirilməsi də təqdirəlayiqdir.

Azərbaycana olan inamın nəticəsidir ki, növbəti konqres Bakıda keçiriləcək. "Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar, doğrudan da, çox təsirlidir" deyən Cənab Prezident gənc müstəqil ölkə üçün, qısa müddət ərzində, belə nailiyyətlərin əldə edilməsini böyük hadisə kitmi dəyərləndirib: "İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir".

### "AZƏRBAYCANDA GEDƏN PROSESLƏRƏ DÜNYA MİQYASINDA BÖYÜK RƏĞBƏT VAR"

Ölkəmizdə siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, eləcə də, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində nailiyyətlər Azərbaycanın qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. Orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biri olan Azərbaycan orbitə 3 peyk çıxara bilib: "Azərspace-1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace". Sözsüz ki, bu uğurlar Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı. Həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk-İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi. Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn "Azərspace-1" Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin daha bir göstəricisidir. İstismar müddəti 15 il olan "Azərspace-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir.

Cənab Prezident Beynəlxalq Astronavtika Konqresində növbəti konqresin Azərbaycanda keçirilməsinin qələbəmiz olduğunu vurğulayarkən, onun önəmini diqqətə çəkib və bildirib ki, bizim çox güclü rəqiblərimiz var idi: "Dörd şəhər konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı, Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərləri. Yəni həm təcrübə, həm də əhali baxımından, Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz, əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən, məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir və Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var. Təkcə bu ayın ərzində həm Türk Şurasına, eyni zamanda, dünyanın BMT-dən sonra ən böyük təşkilatına - Qoşulmama Hərəkatına sədrliyimiz bunun əyani sübutudur... Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi növbəti böyük qələbəmizdir. Mən bu hadisəni çox önəmli siyasi qələbə kimi qəbul edirəm".

### "2022-Cİ İLDƏ, TƏXMİNƏN, 50 İLDƏN SONRA MÜSTƏQİL AZƏRBAYCANDA BU KONQRESİN KEÇİRİLMƏSİ BÖYÜK RƏMZİ MƏNA DAŞIYIR"

Xatırladaq ki, 68 ölkədən 398 üzvü birləşdirən Beynəlxalq Astronavtika Federasiyası dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Hələ Sovet İttifaqında ilk və yeganə konqres Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanda - Bakı şəhərində keçirilmişdir. Bu tədbirdən, təxminən, 6 ay sonra Azərbaycanın kosmik sənayesinin əsasları qoyulmuşdur. "Kaspi" Tədqiqat Mərkəzi yaradılmaqla, Azərbaycan mütəxəssisləri kosmik sahədə tədqiqatlara, kosmik cihazlar hazırlamağa başlamış, sonradan o cihazlardan "Salyut" və "Soyuz" kimi peyklərdə istifadə olunmuşdur. "2022-ci ildə, təxminən, 50 ildən sonra müstəqil Azərbaycanda bu konqresin keçirilməsi böyük rəmzi məna daşıyır" deyən dövlət başçısı bildirib ki, o vaxt biz müstəqil deyildik, ancaq Sovet İttifaqında, məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilmişdir: "Bu gün isə biz müstəqilik və müstəqil Azərbaycan bu böyük tədbirə ev sahibliyi edəcəkdir".

Təbii ki, hər zaman olduğu kimi, Azərbaycan bu dəfə də beynəlxalq tədbirə öz təcrübəsindən və ölkəmizdəki əmin-amanlıqdan yararlanaraq, konqresi Azərbaycanda ən yüksək səviyyədə təşkil edəcəkdir. Cənab Prezident bildirib ki, növbəti 2-3 il ərzində, konqresin keçirilməsi üçün böyük təşkilati işlər aparılmalıdır: "Biz təqribən, 6-7 min xarici qonaq gözləyirik. Bu qonaqlar dünyanın texnoloji gündəliyini müəyyən edən qurumların rəhbərləridir, nümayəndələridir. Ona görə, vaxtı gələndə, konqresin yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsi yaradılacaq və əlbəttə ki, əsas hazırlıq işlərini "Azərkosmos" öz üzərinə götürəcəkdir. Beləliklə, biz növbəti böyük uğura imza atdıq".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bernama agentliyi: Qoşulmama Hərəkatına bu günün geosiyasi şərtləri və reallıqları şəraitində böyük ehtiyac var

***Qoşulmama Hərəkatı bu gün hələ də aktualdır. AZƏRTAC xəbər verir ki, Malayziyanın aparıcı Bernama xəbər agentliyinin xüsusi müxbiri R.Raviçandranın bir neçə gün bundan əvvəl Bakıda öz işini başa vuran Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının XVIII Zirvə Toplantısının yekunlarına həsr olunan analitik məqaləsində gəldiyi əsas nəticə bundan ibarətdir.***


MALAY | ENGLISH | MANDARIN | ARABIC | ESPAÑOL

Bernama.com Get It Right

GENERAL+ BUSINESS+ POLITICS+ SPORTS+ FEATURES+ WORLD+ WEBTV INFOGRAPHICS ARCHIVED

MICRO SITE : Finance | Health | Energy | Property | Lifestyle

LATEST SweeGen defends, protects Reb M intellectual property [ 11m ago ]

WORLD News

NAM: Is it still relevant today?

Last update: 29/10/2019

By R.Ravichandran

BAKU (AZERBAIJAN), Oct 29 -- The recently-concluded 18th Summit of the Heads of State and Government of the Non-Aligned Movement (NAM) has left no doubt that the question of NAM's relevance in international affairs will continue to be debated.

As the second-largest international organisation in the world after the United Nations (UN), NAM has never escaped the attention of critics, especially after the demise of the Soviet Union, the end of the Cold War, and the emergence of a unipolar system centred around the US.

Outdated and full of rhetoric, 'Cold War relic', lack of success in pushing for a reform of the UN and the failure to solve problems among its members are among the criticisms levelled against NAM.

Out of 193 UN members, 119 of them are NAM members, mainly from Asia and Africa. Palestine, a member of NAM in the 120-member grouping, is not a UN member.

However, NAM is still intact today despite the challenges in its 63-year existence including the disintegration of its founder member state, Yugoslavia.

Also, the very fact that Azerbaijan hosted the 18th NAM Summit in Baku after only joining the movement in 2011 is a clear indication that NAM is far from being insignificant.

A clear sign of the continuing relevance of NAM is the increase in its membership, from 25 members at its inception in 1961 to 120 members, 17 observer countries and 10 observer organisations today.

Toplantıda müzakirə edilən məsələlərin aktuallığına diqqət çəkən müəllif vurğulayır ki, sammitin gündəliyi Qoşulmama Hərəkatının beynəlxalq aləm üçün zəruriliyini bir daha ortaya qoydu. Gələcəkdə ünvanına yönələcək tənqidlərə baxmayaraq, ona ehtiyac olduğunu bir daha təsdiq etdi.

Təşkilatın tarixinə nəzər salan müəllif qeyd edir ki, dünyanın BMT-dən sonra ikinci böyük təşkilatı olmasına baxmayaraq, Qoşulmama Hərəkatı Sovet İttifaqının dağılmasından, soyuq müharibənin başa çatmasından və ABŞ ətrafında birqütblü sistemin formalaşmasından asılı olmayaraq heç vaxt tənqidçilərin diqqətindən kənarda qalmayıb. Qoşulmama Hərəkatı əsasən soyuq müharibənin köhnəlmiş ritorikasına, BMT-dən fərqli olaraq islahatların irəliləyişinə, üzv dövlətlər arasında problemləri həll etmək qabiliyyətində olmadığına görə həmişə tənqid olunur. O xatırladır ki, Qoşulmama Hərəkatının 119 üzvü bu gün həm də 193 dövləti birləşdirən BMT-nin üzvləridir. Yalnız təşkilatın 120-ci üzvü olan Fələstin BMT-də təmsil olunmur.

Müəllif yazır ki, 2011-ci ildə təşkilata üzv qəbul edilən Azərbaycanın XVIII Zirvə Görüşünü qəbul etməsi də Qoşulmama Hərəkatının əhəmiyyətini bir daha təsdiq edir. Ötən dövrdə Qoşulmama Hərəkatının üzvlərinin sayının 25-dən 120-yə çatması, burada 17 müşahidəçi dövlətin və 10 müşahidəçi təşkilatın birləşməsi onun aktuallığının əsas göstəricisidir.

Məqalədə Bandunq prinsiplərini bir daha xatırladan R.Raviçandra vurğulayır ki, məhz bu 10 prinsip Qoşulmama Hərəkatının aktuallığını özündə əks etdirir. Qeyd edir ki, həmin prinsiplər təşkilatın üzvü olan dövlətlərə iqtisadi və siyasi təzyiqləri davam etdirən böyük dövlətlər tərəfindən hazırda mübahisə predmeti olaraq qalır. Buna misal olaraq, Qoşulmama Hərəkatının bir sıra üzvlərinin - Kuba, İran və Venesuelanın sanksiyalara məruz qaldığını qeyd edir. Bildirir ki, bu, BMT Nizamnaməsinin, beynəlxalq hüququn, humanitar qanunların və Bandunq prinsiplərinin pozulması deməkdir. Hərəkatı aktuallaşdıran əsas səbəb kimi bu məsələlərin qarşısının alınmasında onun konstruktiv rolu qeyd edilir. Vurğulanır ki, bunların sırasında Qoşulmama Hərəkatına üzv dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qorunması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi, kənar şəxslərin Venesuelanın daxili işlərinə qarışması buna misal olaraq göstərilir. Qoşulmama Hərəkatının yarandığı tarixdən onun gündəliyində olan Fələstin məsələsi hələ də öz həllini tapmayıb və təşkilat bu məsələni daim diqqət mərkəzində saxlayır.

BMT qətnamələrinin bir çox hallarda həyata keçirilməməsinə diqqət çəkən müəllif bildirir ki, bir dövlətin dünya hegemonluğuna yol açan birqütblü sistemi bütün dünyada sülhün bərqərar olmasına şərait yarada bilməz. Beləliklə, əksər üzvləri həm də BMT-nin də üzvü olan Qoşulmama Hərəkatı çoxqütblü sistemi qorumaq üçün əlverişli yerdir.

1961-ci ildə təsis edildiyi vaxtdan Qoşulmama Hərəkatının nüvə silahının ləğvi istiqamətində daim kəskin mövqe nümayiş etdirməsinə diqqət çəkən jurnalist müasir dünyada bir sıra dövlətlər arasında nüvə qarşıdurmasının gücləndiyini qeyd edir. Bildirir ki, bu kontekstdə Qoşulmama Hərəkatı bütün insanlığa qarşı yönəlmiş bu təhlükə ilə mübarizədə mühüm əhəmiyyətə malikdir.

Bundan əlavə, iqtisadi cəbhədə də varlılar və kasıblar arasında qeyri-bərabərliyin davam etdiyi, Qoşulmama Hərəkatının bu iqtisadi ədalətsizliyin aradan qaldırılması istiqamətində mühüm rol oynaya biləcəyi məqalədə xüsusi vurğulanır. Qeyd edilir ki, təşkilatın üzvlərinin əksəriyyətinin inkişaf etməkdə olan ölkələr və ya zəif inkişaf etmiş ölkələr olması bu məsələyə diqqətin artırılmasını tələb edir.

Bütün təhlillərdən sonra müəllif belə bir nəticəyə gəlir ki, Qoşulmama Hərəkatına bu günün geosiyasi şərtləri və yeni reallıqları şəraitində böyük ehtiyac var. Onun rəhbər tutduğu prinsiplər isə alicənablığı ilə seçilir, beynəlxalq sülhün və təhlükəsizliyin təminatında açar rolunu oynayır. Bu prinsiplər olmadan dünyanı xaos gözləyir.

## Mixail Qusman "Verşina" mükafatına layiq görülüb

TASS informasiya agentliyi baş direktorunun birinci müavini, həmyerlimiz Mixail Qusman "Verşina" ("Zirvə") mükafatına layiq görülüb. AZƏRTAC xəbər verir ki, Yuri Lyubimovun "Verşina" ictimai mükafatının beşinci təqdimat mərasimi Moskvada Y.Vaxtanqov adına Dövlət Akademik Teatrında keçirilib. Mükafata, həmçinin Rusiya Federasiyası Teatr Xadimləri İttifaqının sədri Aleksandr Kalyagin və Rusiya Rəqqaslar İttifaqının prezidenti Stanislav Popov layiq görülüblər.

Mixail Qusmana mükafatı Birinci kanalın baş direktoru Konstantin Ernst təqdim edib. TASS onun aşağıdakı sözlərini sitat gətirir: "Mənə çox sevdiyim bir insanın - Yuri Petroviç Lyubimovun mükafatını çox böyük sevgi bəslədiyim digər dostuma təqdim etmək xoşbəxtliyi nəsib olub. Mixail Solomonoviç Qusman görkəmli insandır. O, ilk növbədə, böyük peşəkardır, ikincisi, onun TASS-da fəaliyyət göstərməsi Rusiya informasiya sistemi üçün mühüm üstünlükdür. XİN isə onun şəxsində danışıqlarda incə və ağıllı mütəxəssisi itirib". "Verşina" mükafatı 2015-ci ildə "Y.P.Lyubimovun teatr sənətinin inkişafı üzrə xeyriyyə fondu" qeyri-kommersiya təşkilatı tərəfindən təsis edilib və peşəkarlıq, öz işinə sadiqlik və vətəndaş mövqeyinə görə verilir.

## Litvanın Xüsusi İstintaq Xidmətinin baş direktoru Milli Məclisdə olub

Azərbaycanda səfərdə olan Litvanın Xüsusi İstintaq Xidmətinin baş direktoru Zidrinas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyəti Milli Məclisdə olub.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə həyata keçirilən islahatlar, korrupsiyaya qarşı mübarizə istiqamətində görülən tədbirlər barədə məlumat verib. O diqqətə çatdırıb ki, parlament müvafiq sahədə çoxsaylı hüquqi sənədlər qəbul edib. Ardıcıl tədbirlər həyata keçirilir, hazırda yeni milli strategiya işlənilir. Qonaq Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində uğurlu iş qurulduğunu və yaxşı təcrübə əldə edildiyini deyib. Bildirib ki, Litvaya qayıtdıqdan sonra onlar bəzi təcrübələrdən istifadə edəcəklər.

## "Naxçıvan: siyasi və sosial-iqtisadi tarixinə dair" monoqrafiyasının təqdimatı olub

***AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent Yaşar Rəhimovun "Naxçıvan: siyasi və sosial-iqtisadi tarixinə dair" (XIX-XX əsrin əvvəlləri) monoqrafiyasının təqdimatı olub.***




AMEA Naxçıvan Bölməsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Azərbaycan tarixinin XIX-XX əsrlər dövrünün tədqiqinin tarixşünaslığımızda mühüm elmi istiqamətlərdən biri olduğunu bildirib. Alim vurğulayıb ki, nəşrdə bu istiqamətdə tədqiqatlar aparılıb və həmin dövrlərdə Naxçıvanın sosial-iqtisadi, siyasi tarixinin vəziyyəti araşdırılıb. Monoqrafiyada tanınmış tarixçi alimlərin, rus müəlliflərin və qafqazşünasların əsərlərinə, o cümlədən arxiv sənədlərinə istinad edilib.

Akademik XIX əsrdə ermənilərin Naxçıvana köçürülməsi və onun nəticələri, ermənilərin ərazi iddialarının əsassızlığı, əsrin sonlarında regionun kənd təsərrüfatının vəziyyəti və sair məsələlərin də nəşrdə tədqiq edildiyini bildirib. Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev, Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, dosent Toğrul Xəlilov və Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov çıxış edərək nəşr haqqında fikirlərini bölüşüb, müəllifə elmi fəaliyyətində uğurlar arzulayıblar.

# Mahnıların ifasında Azərbaycan dilinin saflığının qorunmasına həsr olunmuş tədbir keçirilmişdir





Dünən Azərbaycan Milli Konservatoriyasında "Azadlıq Hərəkatçıları" İctimai Birliyi, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu və Azərbaycan Milli Konservatoriyası ilə birgə Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Xalq və bəstəkar" mahnılarında Azərbaycan dilinin saflığının qorunması" layihəsinin yekunlarına həsr edilmiş konfrans keçirmişdir.

Tanınmış müğənnilərin, dilçi-alimlərin və bəstəkarların iştirakilə keçirilən tədbiri giriş sözü ilə konservatoriyanın prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Lalə Hüseynova açdı. Layihə çərçivəsində "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin SƏS TV onlayn televiziyası ilə birgə hazırladığı "Mahnılarımızın dili" sənədli filmi nümayiş etdirildikdən sonra məruzə ilə çıxış edən "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin sədri, yazıçı-publisist, layihənin rəhbəri Təhmasib Novruzov araşdırmaların yekunları, ortaya çıxan qüsurlar və onların dilimizin saflığına xələl gətirməsi, eləcə də, həmin qüsurların aradan qaldırılması ilə bağlı təkliflərlə bağlı ətraflı məlumat verdi. T.Novruzov bildirdi ki, layihənin icrası zamanı 2000-dən çox mahnı ifası dinlənilmiş, 220 dil qüsuru aşkar edilmişdir. Qeyd olundu ki, Respulikanın Xalq Artistləri Mənsum İbrahimov, Mübariz Tağıyev, Gülyanaq Məmmədova, Mələkxanım Əyyubova və əməkdar artist Təyyar Bayramov istisna olmaqla, ifası dinlənilən bütün müğənnilərdə dil qüsuru aşkar edilmişdir.

Layihənin eksperti, AMEA Nəsimi adına Dilçilik İnstitutu Monitorinq şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Sevinc Əliyeva, millət vəkili Hikmət Babaoğlu, Respublikanın Xalq Artisti Eldost Bayram, Əməkdar Artist Təyyar Bayramov, jurnalist Hikmət Əliyev və başqaları çıxış edərək, tədbirin əhəmiyyətindən, xüsusilə, gənc ifaçıların formalaşmasında belə tədbirlərin rolundan danışdılar.

Sonda araşdırma zamanı ifalarında dil qüsuru aşkar olunmayan Respublikanın xalq artistləri Mübariz Tağıyev, Mənsum İbrahimov, Gülyanaq Məmmədova, Mələkxanım Əyyubova və Əməkdar Artist Təyyar Bayramov "Azadlıq Hərəkatçıları" İctimai Birliyi və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun birgə "Təşəkkürnamə"ləri ilə təltif edildilər.

Tədbirə Milli Konservatoriyanın prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Malik Quliyev yekun vuraraq, belə vacib və maraqlı tədbirin Milli Konservatoriyada keçirilməsinə görə layihənin əməkdaşlarına minnətdarlığını bildirdi.

**RƏFİQƏ**

# Paşinyan hələ də barbar düşüncəsindən qurtula bilmir

***Uğursuz, təcrid vəziyyətinə düşən Ermənistan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda Bakıda keçirilən Qoşulmama Hərəkatının Zirvə Görüşündə müzakirə olunan məsələləri və qəbul olunan qərarlara barbar düşüncəsinə uyğun münasibət bildirməsi, işğalçı ölkənin sivil dünya dəyərlərindən uzaq düşdüyünü göstərir. Söhbət etdiyimiz müsahiblərimiz Ermənistanın dünyada gedən proseslərdən təcrid olunduğunu və bu səbəbdən də, qeyri-ciddi açıqlamalarla vəziyyətdən çıxmağa çalışdığını, ancaq durumunu daha da ağırlaşdırdığını bildirdilər.***

### Millət vəkili Tahir Rzayev: "Ermənistan xarici işlər naziri təhqir yolu ilə danışırsa, deməli, o, tərbiyəsizdir"



- Ermənistan Xarici İşlər Nazirliyinin rəhbərliyi, ümumilikdə, hakim rejim siyasət qanmır və siyasəti başa düşmür. Onlar anlamırlar ki, beynəlxalq hüquq normalarında dövlətlərin ərazi bütövlüyü BMT-nin qətnamələrində, bütün beynəlxalq təşkilatların qərarlarında təsdiq olunur ki, dövlətlərin ərazi bütövlüyü təmin olunmalıdır, güc yolu ilə onları dəyişdirmək mümkün deyil. Yəni burda beynəlxalq normaları pozmaq yolverilməzdir. Ermənistan xarici işlər naziri siyasətdən uzaqdır, elə bu da Paşinyanın bir tayıdır, ona görə də, bu cür bəyanatlar verir. BMT-nin əsas qətnamələrində də, əsasnaməsində də, dövlətlərin suverenliyinin pozulması yolverilməzdir. Qoşulma Hərəkatının Bakıda keçirilən Zirvə Görüşündə 120 dövlətin nümayəndəsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının vacibliyini bəyan etdilər. Ermənistan xarici işlər naziri təhqir yolu ilə danışırsa, deməli, o tərbiyəsizdir və onun tərbiyəsi yoxdur. Həm də bu, beynəlxalq etik normalara zidd olan bir şeydir. Dövlət rəhbəri, dövlət siyasətində olanlar heç vaxt təhqiramiz ifadələrlə danışmırlar. Yəni onlar siyasi yol ilə danışırlar, reallıqla danışırlar, onlar beynəlxalq normalar əsasında çıxış edirlər. Bu prinsiplərin Ermənistan rəhbərliyində olmaması onların küçədən hakimiyyətə gəlmələri ilə bağlıdır.

### "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev: "Ermənistan hərəkət qabiliyyətini itirib"



- Qoşulmama Hərəkatının qəbul etdiyi qətnamə beynəlxalq hüquq normalarına uyğundur. Bu, Azərbaycanın hərəkat çərçivəsində həyata keçirdiyi fəaliyyətin məntiqi nəticəsidir, Qoşulmama Hərəkatının Azərbaycanla həmrəyliyinin əlamətidir, Qoşulmama Hərəkatının Ermənistanın təcavüzkar ölkə olmasını tanıdığının göstəricisidir. Ermənistanın bu gün keçirdiyi isterik vəziyyətin səbəbi, 120 dövlət tərəfindən Qarabağ probleminin həqiqi mahiyyətinin etiraf olunması və Ermənistanın işğalçı dövlət adlandırılmasıdır. Ermənistanın yaşadığı isterikanın kökündə dayanan məsələlərdən biri də siyasi prespektivdə ola biləcək real hadisələrdir, ən azı ondan ibarətdir ki, 120 dövlət Azərbaycanın təcavüzə məruz qaldığını və Ermənistanın işğalçı dövlət olduğunu təsdiq edirsə, demək, gələcəkdə Ermənistan Qoşulmama Hərəkatına üzv olmağa çalışsa, çox ciddi müqavimət və suallarla rastlaşacaq. Azərbaycanın haqq işinin tanınması, o deməkdir ki, ən azı 120 dövlətin dəstəyi ilə Xocalı Soyqırımını dünyada genosid olaraq tanıtmaq prespektivi və imkanları yarandı. Ən azı, 120 dövlətin dünyada Azərbaycana verdiyi dəstəklə Ermənistanın geniş beynəlxalq manevri imkanlarının məhdudlaşdırılması kimi bir prespektiv var. Yəni Azərbaycan, ən azı, 120 dövlətin iştirakı ilə gələcəkdə Ermənistanın beynəlxalq münasibətlər sistemində hər hansı bir addımını ciddi şəkildə məhdudlaşdırmaqla bloklamaq imkanına malikdir. Buna görə, Ermənistanın Xarici İşlər Nazirliyinin verdiyi reaksiya əsassıdır, bu, Ermənistanın vəziyyəti üçün yaranmış olan böyük təhlükədən xəbər verir. Amma reaksiyanı belə isterik və qeyri- etik formada, beynəlxalq hüquq və beynəlxalq münasibətlərin norma və prinsiplərinin tam pozulması şəraitində həyata keçirilməsi, həqiqətən, Ermənistanın təcavüzkar, qeyri-etik davranışlara malik bir ölkə olduğunu sübut edib. Həmi də bu amil Ermənistanın çarəsizliyini nümayiş etdirir və Ermənistanın, əslində, soyuqbaşla, xarici siyasətdə soyuqqanlı mühakimə və hərəkət qabiliyyətini itirdiyini ifadə edir.

**GÜLYANƏ**



# Siyasi ekspert: "120 dövlətin Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi Ermənistanın vəziyyətini daha da gərginləşdirib"

Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün Yekun Sənədinə Ermənistan Xarici İşlər Nazirliyinin aqressiv və bütün diplomatik normalardan kənara çıxan reaksiyası rəsmi Yerevanın baş verənlərdən nə qədər sarsıldığını, ciddi narahatlıq keçirdiyini, çıxılmaz duruma düşdüyünü nümayiş etdirir. Şübhəsiz ki, bu narahatlığın ciddi əsasları var. Qoşulmama Hərəkatına üzv olan 120 dövlətin Azərbaycanın ədalətli mövqeyini birmənalı şəkildə dəstəkləməsi, ilk növbədə, Ermənistan ətrafında beynəlxalq təcrid çəmbərinin daha da daralması, işğalçı ölkənin Helsinki Yekun Aktının prinsipləri arasında manipulyasiya etmək imkanlarının xeyli məhdudlaşması kimi qəbul olunmalıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli deyib.

Ekspert qeyd edib ki, baş verənlərin Ermənistanın daxili siyasətinə təsir imkanları da böyükdür. Çünki Ermənistanın işğalçılıq siyasəti nəinki bu ölkənin təmsil olunmadığı İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq əməkdaşlıq platformaları, hətta Ermənistanın üzv olduğu, yaxud müşahidəçi statusu ilə iştirak etdiyi hərəkat və təşkilatlarda kəskin şəkildə pislənilir və rəsmi Yerevan bunun qarşılığında heç bir addım ata bilmir. Ermənistanın üzv olduğu hərbi-siyasi alyansda - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Qazaxıstan və Belarus tərəfindən küncə sıxışdırılması, baş nazir Nikol Paşinyanın MDB dövlət başçılarının son Zirvə Görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin qarşısında aciz duruma düşməsi və heç bir dəstək görməməsi və son olaraq Ermənistanın müşahidəçi statusu ilə təmsil olunduğu Qoşulmama Hərəkatından aldığı zərbə rəsmi Yerevanın nə qədər aciz duruma düşdüyünü göstərir.

Ekspert qeyd edib ki, Ermənistanın Qoşulmama Hərəkatına üzv dövlətlərin ünvanına səsləndirdiyi ittihamlarda nəzərəçarpan qəzəb, qeyri-etik və qeyri-diplomatik ifadələr də bu aciz durumdan qaynaqlanır. Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatında yer alan qəzəbli mülahizələr isə işğalçı ölkənin aldığı ardıcıl zərbələrə uğursuz cavab cəhdindən başqa bir şey deyil. Məsələn, bəyanatda qeyd olunur ki, Azərbaycan erməniləri qətlə yetirən cinayətkarları qəhrəmanlaşdırır. Maraqlıdır, görəsən Azərbaycan torpaqlarını işğal edən, günahsız körpələri, qadınları, qocaları qətlə yetirən hərbi cinayətkarlara qarşı işğala məruz qalan ölkənin əsgər və zabitləri nə etməlidirlər? Şübhəsiz ki, bu absurd iddianın əsasında başqa amil - Azərbaycan Prezidentinin Ermənistanda faşist Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə bağlı səsləndirdiyi və konkret faktlara söykənən fikirlərə cavab cəhdi dayanır. Bu, onu göstərir ki, rəsmi Yerevan Qaregin Njde ilə bağlı aldığı zərbədən hələ də ayılmayıb. Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Yekun Sənədi isə işğalçı ölkənin onsuz da acınacaqlı olan durumunu daha da gərginləşdirib.

# Terrora görə Ermənistandan hesab sorulmalıdır

## *Terrorçu ermənilər və erməni terrorunun şahidləri "müəmmalı tərzdə" niyə ölürlər?*

***Ermənistandakı ən böyük terror hadisəsini törədənlərin və şahidlərin "müəmmalı tərzdə" öldükləri maraq doğurur. Ermənistana məxsus mətbuat səhifələrində, xüsusən də, "rusarminfo.ru" saytında yayımlanan məlumatda qeyd olunur ki, bazar günü Ermənistanda 27 oktyabr 1999-cu il terror hücumu qurbanlarının anım günü qeyd edilib. Həmin gün, yəni 27 oktyabr 1999-cu il tarixində, beş terrorçu Ermənistan Milli Məclisinin konfrans salonuna daxil olub, orada olan Ermənistan parlamenti və hökumətinin rəhbərlərini və üzvlərini güllələyiblər. Terrorun qurbanları Ermənistanın baş naziri Vazgen Sarkisyan, parlamentin spikeri Karen Demirçyan, parlamentin vitse-spikerləri Yuri Baxşyan və Ruben Miroyan, əməliyyat işləri naziri Leonard Petrosyan, parlamentin deputatları Armenak Armenakyan və Mikael Kotanyan olub. Digər bir müavin, hücum zamanı parlament binasında olan "Hayastan" qəzetinin redaksiya heyətinin sədri Henrik Abrahamyan infarkt keçirərək ölüb.***

### Ermənistan parlamentində terror törədənlər bir-birinin ardınca ölürlər və səbəbləri nədənsə araşdırılmır

Bu da faktdır ki, terrorçuların məhkəməsi 2001-2003-cü illər arasında davam edib. Məhkəmədə 91 nəfər zərərçəkmiş kimi tanınıb, 129 nəfər şahid qismində dindirilib. Prokurorluq ölüm cəzasını tələb edib, lakin Ermənistanda edam cəzası 2003-cü ilin sentyabrında ləğv edildiyinə görə, bu, icra edilməyib. Qrupun lideri, keçmiş jurnalist Nairi Unanyan, qardaşı Karen Unanyan, dayısı Vram Qalstyan, həmçinin Derenik Bejanyan, Edik Qriqoryan və Asot Knyazyan da daxil olmaqla, altı terrorçu ömürlük həbs cəzasına məhkum edilib. Hamlet Stepanyan isə 14 il müddətinə azadlıqdan məhrum edilib. Yeddi şəxsin hamısı Ermənistan Cinayət Məcəlləsinin dövlətə xəyanət, terrorizm və xüsusilə, təhlükəli dövlət cinayətlərinin törədilməsi maddələri ilə təqsirli bilinib.

Məsələ burasındadır ki, Nairi Unanyan həbsxanada tam sağlam şəkildə, mükəmməl sağlamlıq vəziyyətində öz cəzasını çəkir, amma terror hücumunda iştirak edən bir çox şəxs, habelə, hücumun şahidləri naməlum şəraitdə ölürlər. Məsələn, Eduard Qriqoryan 5 noyabr 2017-ci ildə vəfat edib. Amma ən maraqlı məsələ budur ki, ölməmişdən əvvəl, o, oktyabrın 27-də keçirilən məhkəmədə bu barədə "kimlərinsə cəmiyyətdən inadla gizlənməyə çalışdıqlarını" söyləyəcəyini vəd etmişdi və bunun ardınca, yəni həmin gecə onun ürək nahiyəsində ağrılar peyda olub və Qriqoryan təcili yardımın onu apardığı xəstəxanadaca ölüb.

Bu hadisəni təsadüfi hesab etmək olmaz, çünki Qriqoryandan əvvəl də, daha 8 nəfər, terror aktının iştirakçıları və 27 oktyabr hadisəsinin şahidləri müəmmalı tərzdə ölüb ki, bunun hələ də izahı yoxdur. Rəsmi məlumatlara görə, 2000-ci ildə cəzaçəkmə müəssisəsində, öz kamerasında peşəsi üzrə elektrik işçisi olan Norayr Eqiazaryan, elektrik cərəyanının vurması nəticəsində müəmmalı tərzdə ölüb. Məhkəmə ekspertizasının rəyinə görə, hadisə 220 volt gərginlik səbəbindən olub.

Bunun ardınca, daha dəqiq desək, 2004-cü ildə, rəsmi açıqlamaya görə, təcavüzkar Vram Qalstyan öz kamerasında intihar edib. Məhkəmə prosesində, o, vaxtaşırı psixotrop dərmanlar vurduğunu və insanların həqiqətləri tapmamaları üçün intihar etmələrinə ciddi təşviq edildiyini bildirib. Daha sonra isə, yəni 2010-cu ilin mayında cəza müddəti iki il sonra başa çatacaq Hamlet Stepanyan eyni cəzaçəkmə müəssisəsində vəfat edib. İlkin nəticələrə görə, Stepanyanın ölümünə səbəb infarkt olub. Halbuki müdafiəçiləri Stepanyanın ürək problemi olmadığını iddia edirlər. Nairi Unanyan ilə yaxından tanış olan və bu terror hadisəsinin şahidi olan jurnalist, Ermənistan İctimai Televiziya və Radio Şirkəti Şurasının sədri Tiqran Naqdalyan isə, 2002-ci ildə İrəvanda, valideynlərinin yaşadığı evin çıxışında öldürülüb. Terror aktında iştirak etməkdə günahlandırılan, lakin sonradan dəlil olmaması səbəbiylə sərbəst buraxılan sabiq millət vəkili Muşeq Movsisyanın da aqibəti yaxşı olmayıb və 2004-cü ildə Aparan-İrəvan avtomobil yolunda baş verən avtomobil qəzasında da o, naməlum tərzdə ölüb.




Həmin ildə, 2004-cü ildə, ABŞ-da baş verən bir qəza nəticəsində parlamentin keçmiş tibb bacısı, məhkəmədə şahid qismində iştirak edən Roza Hovhannisyan da ölüb. Düşündürücü məqam isə odur ki, hücum günü o da məclisdə olub. Ən maraqlı məqamlardan biri isə odur ki, bu işdə şahid olanlardan biri, parlamentin protokol şöbəsinin əməkdaşı Asmik Abrahamyan 2004-cü ildə parlament binasında özünü asaraq intihar edib.

### Terror hadisəsinə görə bütün dünya narahat olmalı, dünya ictimaiyyəti də araşdırma və cəza tələb etməlidir

Maraqlı, eyni zamanda, sual doğuran məqamlar, əslində, həqiqətən mövcuddur, çoxdur və bu da tam məntiqidir. Əvvəla, ona görə ki, bu terrorun iştirakçıları niyə bir-birinin ardınca, özü də müəmmalı tərzdə ölür. Çox güman ki, öldürülür. Niyə bu ölüm faktları hətta araşdırılmır da? Nə səbəbə bu faktlarla əlaqədar cəmiyyətə məlumat verilmir və hətta gizlədilir də? Ermənistan ictimaiyyəti bu terrorçu dəstəyə üzv olanların, hadisə iştirakçılarının, hadisə şahidlərinin qəflətən və səbəbsiz tərzdə öldüyü barədə niyə illərlə sonra məlumat əldə edir? Faktlar niyə gizli saxlanılır? Nədən ehtiyat edilir? Suallar çoxdur və hər biri də məntiqi, əsaslı cavab tələb edir. Amma görünür, bu vaxta qədər bu suallara cavab verməyən Ermənistan hökuməti və onun məhkəmələri heç bundan sonra da cavab vermək niyyətində olmayacaq.

Həqiqətən də, bu suallar təkcə erməniləri deyil, dünya ictimaiyyətinin istənilən hər bir üzvünü düşündürə bilər və bu düşüncələrində də, hər kəs haqlıdır. Söhbət axı terrordan gedir və nəticələrinin acınacaqlı olması səbəbindən, terror aktı bütün dünyanı narahat edir. İndi dünya qarşısında terrorizmlə mübarizə aktual mövzuya çevrildiyindən, prioritet hesab olunduğundan, bu fakt üzərində dünya ictimaiyyəti də araşdırma tələb etməli, günahkarların cəzalandırılmalarını istəməlidir.

Son vaxtlar Avropa ölkələrində dinc əhali bir sıra tələblərlə çıxış etdiyi zaman, onlar dövlət tərəfindən tətbiq olunan işgəncələrə məruz qalırlar və səbəb kimi iğtişaşları, qarşıdurmaları və çaxnaşmaları bəhanə gətirirlər. İspaniya hökuməti küçələrdəki nümayişçilərə qarşı rezin güllələrdən, gözyaşardıcı qazlardan, itlərdən, atlardan, istifadə edir, dəyənək altında insanları əzir və beynəlxalq təşkilatlar qoca qitədəki bu hadisələrə iğtişaşların qarşısının alınması kimi haqq qazandırırlar. Amma az qala, 30 ilə yaxındır ki, Azərbaycan torpaqlarında, daha doğrusu, Dağlıq Qarabağ ərazisində hər cür cinayətlərə imza atanlara, Xocalıda dünya miqyasında misli görünməmiş faciəni törədənlərə, hətta öz ölkəsində belə, düz parlamentin daxilində terror təşkil edən terrorçulara, terrorçuluq siyasəti yürüdən dövlətə qarşı sanksiya tətbiq edilmir. Hətta insanlığa sığmayan belə faciələri və terror aktlarını törədənlərə qarşı çıxanlar da beynəlxalq qurumlar tərəfindən dəstəklənmir. Nəyə görə isə Azərbaycana məxsus torpaqlarda işğalçı və terrorçuların qalmasına hələ də müşahidəçi mövqe sərgilənir. Nə səbəbə isə, bu terrorçuların hərbi yolla təmizlənməsi barədə eşitmək belə istəmirlər və insanların təhlükəsizliyi bu məqamda - terrorçuların təmizlənməsi məqamında onları narahat etməli olur. Ermənistan parlamentində terror aktı törədən terrorçu Nairu Unanyanın hüquqlarının müdafiəsindən dəm vurulur, amma terrorun qurbanı olan və öldürülən rəsmilərin halı kimisə maraqlandırmır.

### Ermənistanın əvvəlki və indiki hakimiyyəti, əslində, terror adlı siyasətin bir parçası, bir medalın iki üzüdür

Sözsüz ki, təkcə hansısa erməni deyil, dünya ictimaiyyətinin hər hansı nümayəndəsi belə erməni xislətinin nədən ibarət olduğunu, bu toplumun terrora meyilli olduğunun fərqindədir. Ermənilər tərəfindən törədilən terror aktları, onun acınacaqlı nəticələri, bu terrorların qurbanları haqqında faktları bir-bir sadalamağa da ehtiyac yoxdur və təkcə Xocalı kimi insanlıq dramı sadalananların əyani sübutudur ki, bunu da hamı bilir. Amma ermənininin öz içində terror törətməsi, bunun da, 20 il gizlədilməsi cəmiyyəti düşündürməli və nəticə çıxarmağa vəsilə olmalıdır. Maraqlıdır, niyə bu illər ərzində terror aktının təfərrüatları açılmır, yaxud açıqlanmır? Əksinə, bunu açmaq və ya açıqlamaq istəyənlər bir-birinin ardınca "yox" olurlar.

Bir fakt, diqqəti cəlb etməyə bilməz ki, terrorçuların lideri hesab olunan, Nairi Unanyan, təqribən bir ay əvvəl, şərti azadlığa buraxılması tələbi ilə müraciət də edib. Hansı ki, 20 il həbsdən sonra ömürlük cəza alan bir məhkumun belə bir tələb etmək hüququ Ermənistan Konstitusiyasında da var. Qanuna görə, bu müddətdən, yəni 20 ildən sonra, ömürlük cəza çəkənlər erkən azadlığa buraxılmaları üçün müraciət etmək hüququna malikdirlər. Unanyan da bu hüquqdan istifadə etmək üçün müraciət edib. Ancaq bu müraciət, bu məsələ hesaba belə alınmayıb və Unanyan həbsdə öz cəzasını əvvəlki kimi çəkir. İstər ədliyyə naziri Rustam Badasyan, istərsə də ekspertlər onun sərbəst buraxılmasının mümkünsüzlüyü qənaətindədirlər.

Həqiqət ondan ibarətdir ki, əvvəla, bu terroru ermənilər özləri törədiblər və həqiqi, daha doğrusu, ən dəhşətli və təhlükəli terrorçu, nəinki hələ də azadlıqdadır, hətta hökm sahibidir və çox güman ki, elə hakimiyyətdədir. Ermənistanın istər əvvəlki, istərsə də hazırkı hakimiyyətinin mahiyyəti, əslində, deyilənləri tam şəkildə isbatlayır. Çünki bundan əvvəl, Ermənistanın prezidenti olmuş şəxs Dağlıq Qarabağda işğalçılıq siyasəti yürüdən, hətta buna başçılıq edən, sonra da bunu öz dili ilə mötəbər kürsülərdə, dünya miqyaslı beynəlxalq platformalarda belə etiraf edən birisi idi. Onun ardınca gələn, guya ki, xalqın seçimi olan, əslində isə, avantüristcəsinə dövlət çevrilişi edən və bu çevrilişə demokratiya adı qoymağa cəhd edən hazırkı hakimiyyət isə işğal olunmuş torpaqlarda utanmadan qol açıb oynayan, atılıb-düşənlərdir. Faktlar təsdiq edir ki, hər iki hakimiyyət, əslində, terror adlı siyasətin bir parçası, daha dəqiq ifadə etsək, bir medalın iki üzüdür. Bu terrorçuların özlərinin bundan sonra da hansısa terror faktını könüllü olaraq, araşdıracaqlarına, terrorçunu aşkara çıxaracaqlarına, cəzalandıracağına nə erməni cəmiyyəti, nə də dünya ictimaiyyəti ümid etməsin. Sözsüz ki, terrorçu hakimiyyətin özü-özünü cəzalandırmaq qərarı verəcəyi inandırıcı ola da bilməz. Amma hər bir halda, Ermənistan cəmiyyəti bu terror hadisəsinin açılması ilə məşğul olmasa da, dünya ictimaiyyəti harda olmasından asılı olmayaraq, törətdiyi terror hadisəsinə görə Ermənistandan hesab sormalı, məsuliyyət tələb etməlidir. Çünki terrorçunun törətdiyi və bundan sonra törədəcəyi qətllərdən, faciələrdən dünyanın heç bir ölkəsinin vətəndaşı, ümumiyyətlə, heç kim sığortalanmayıb.

***İnam HACIYEV***

***AXCP sədri Əli Kərimlinin "Facebook" sosial şəbəkəsində Avropa İttifaqının ölkəmizdəki səfiri Kestutis Yankausla görüşü barədə şərh yazması və həmin şərhində avropalı diplomatın onlarla həmrəy olduğunu iddia etməsi, artıq digər bir sıra məsələləri təhlil etməyə zəmin yaradır. Sirr deyil ki, anarxiyaçı baxışları və dağıdıcılıq, ultra-radikalçılıq fəaliyyətləri ilə müxalifətin digər qanadlarından seçilən AXCP, eləcə də, bu təşkilatın nəzarətində olan "Milli Şura" rəhbərliyində təmsil olunan funksionerlər dəfələrlə Azərbaycana qarşı ikili standartlardan çıxış edən, xarici dairələr, diplomatik nümayəndəlik təmsilçiləri ilə görüşlər keçirib, sifarişlər alıblar. Görünür, Ə.Kərimlinin budəfəki görüşü də həmin məqsədi daşıyıb və bu faktın özü də, kifayət qədər isbatlayır ki, AXCP sədri, əslində, bütün fəaliyyət istiqamətini bu kimi xarici dairələrin sifarişləri əsasında qurur və onların əmrlərinə müntəzir dayandığını etiraf edir.***

# Əli Kərimli xarici qüvvələrin əlinə baxır...

## Və əmrlərinə müntəzirdir

### Əli Kərimli kimlərin əlinə işlədiklərini tam çılpaqlığı ilə ortaya qoyub

Bu səbəbdən, biz Ə.Kərimlinin yazdığı statusa bir daha nəzər salaq. O, yazır ki, səfir, yəni Aİ-nin Azərbaycan üzrə təmsilçisi Kestutis Yankaus bir daha oktyabrın 19-da baş tutmuş (?!-R.N.) mitinqlə bağlı öz mövqeyini təkrarladı. "Avropa İttifaqı toplaşmaq azadlıqlarını fundamental insan haqlarından biri hesab edir və ümid edir ki, Azərbaycan hakimiyyəti özünün beynəlxalq öhdəliklərinə əsasən, sərbəst toplaşmaq azadlıqlarını təmin edəcək. Aİ aksiyanın dağıdılmasını və iştirakçıların saxlanılmasını araşdırmağa çağırır. Aİ etiraz aksiyası zamanı saxlanılanların azadlığa buraxılmasına çağırır" deyə Ə.Kərimli sözügedən statusunda hər şeyi tam çılpaqlığı ilə ortaya qoyub.

### AXCP sədri öz hakimiyyətləri zamanı qəbul edilən qanuna qarşı çıxır

Bu arada, biz Milli Məclisin növbəti iclası zamanı vitse-spiker Ziyafət Əsgərovun səsləndirdiyi fikirləri bir daha xatırlatmaq istərdik. Belə ki, Ə.Kərimlinin xarici dairələrlə iş birliyində olması, onlara nökərçilik etməsi bəllidir. Lakin digər məqam Azərbaycan hakimiyyəti ilə diktə dilində danışmağa cəhd edən həmin qurumlara yerində verilən sərt cavabdır. Misal üçün, Ziyafət müəllim hakimiyyətimizlə diktə dilində danışmağa cəhd göstərib, "ağılqoyanlıq" edənlərə xatırladıb ki, əgər Ə.Kərimli insanların sərbəst toplaşmaq hüquqlarının pozulduğunu iddia edirsə və onlar da Ə.Kərimlinin dediklərini qəbul edirlərsə, onda 1992-ci ildə ölkəyə rəhbərlik etmiş Əbülfəz Elçibəyin Helsinki şəhərində "Mülki və siyasi hüquqlar haqqında" aktını imzaladığını xatırlasınlar. "Əli Kərimli, bunu sizin "sevgi" bəslədiyiniz, sonra xəyanət etdiyiniz Elçibəy imzalayıb" deyən Z.Əsgərov, onu da xatırladıb ki, Azərbaycan qanunvericiliyində birbaşa göstəriş var ki, metro stansiyasının 200 metr yaxınlığında mitinq keçirmək olmaz: "Bu ərazi metronun mühafizə zonası adlanır. Əgər niyyətin sağlamdırsa, mitinqi 10-15 kilometr kənarda da keçirmək olar. Amma niyyət sağlam deyil axı. Əli Kərimli bir neçə gün əvvəl, sosial şəbəkədə bəyanat verdi ki, nəyin bahasına olursa-olsun, şəhərin mərkəzinə gəlin, qarşıdurma olmalıdır, hakimiyyətin üzərinə getməliyik. Sən kimsən, hakimiyyətin üzərinə gəlmək istəyirsən? Bir qrup adamın şıltaqlığına görə, milyonlarla insanın hüquqlarını tapdalamalıyıq?"



Yəni buradan, həm də belə anlaşılır ki, əslində, sərbəst toplaşmaq azadlığının qarşısının alındığını iddia edən Ə. Kərimli öz hakimiyyətləri dövründə bu qanunun qəbul edilməsini xatırlamalı və necə deyərlər, avropalı diplomatların qarşısında yaxa-başını dartıb, özünü məzlum kimi göstərməməlidir. O cümlədən, avropalı diplomatlar da həmin qanundan hali olmalıdırlar. Beləliklə, AXCP sədri öz hakimiyyətləri zamanı qəbul edilmiş qanuna qarşı çıxır, bu vasitə ilə özünü daha çətin vəziyyətə salır.

### Diktə dili ilə danışmağa cəhd edənlərin nəzərinə!

Digər tərəfdən, Z.Əsgərovun radikal və dağıdıcı müxalifətə dəstək göstərən, sifarişlər verən, bu vasitə ilə ölkəmizdəki sabitliyi pozmağa cəhd göstərən avropalı siyasilərə, diplomatlara və qurumlara da sözü kəskinliyi ilə seçilib: "Avropadan səslər gəlir... Avropa İttifaqından, Avropa Şurasından deyirlər ki, məsələni araşdırın, məlumat verin... Əvvəla, bizimlə diqtə dilində danışmaq olmaz, gedin Londonda, İspaniyada, Berlində, Parisdə demokratiya adına olan biabırçılıqları araşdırın, sonra bizimlə söhbət edərsiniz... Biz yolumuzu özümüz könüllü seçmişik, hara getdiyimizi çox yaxşı bilirik, məsələləri də özümüz araşdırırıq, kimin günahı varsa, cəzasını alacaq, günahı olmayan azad olunacaq. Azərbaycan dövlətini, dövlətçiliyini, Prezident İlham Əliyevi göz bəbəyi kimi qoruyacağıq".

Əslində, Ə.Kərimlinin özünütərif vasitəsi ilə Avropa İttifaqının ölkəmizdəki səfiri Kestutis Yankausla görüşünü ictimailəşdirməsi digər faktı da - onun və ətrafının Qərb ağalarının nökəri olduğu faktını təsdiqləmiş olur. Əslində, həmin fakt özü-özlüyündə təsdiq olunub və bu, "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü G.Hacıbəylinin icazəsiz aksiya zamanı Amerika səfirliyi və digər xarici qurumlarla telefon danışıqları aparıb, əmrlər almasıdır. Ümumiyyətlə, bu ünsürlər və bu ünsürlərin ətrafında olan ekstremist, anarxiyaçı yığnaq üzvləri hələ də anlamırlar ki, xalq onları dəstəkləmir, əksinə, rədd edir. Çünki Azərbaycan xalqı dövlətinin yanındadır, onlar isə xalqı, sadəcə, öz çirkin məqsədləri üçün istifadə etməyə çalışırlar. Dağıdıcıların icazəsiz aksiyalarına qatılmaqdan imtina etmiş insanları söyən də, təhqir edən də, məhz onlardır. Bu fakt isə, həm də belə bir nəticə hasil etməyə zəmin yaradır ki, anarxist ekstremistlərin növbəti cəhdləri də nəticəsiz qalacaq. Onlar, əslində, xarici dairələrin sifarişlərini icra etməyə səy göstərməklə, öz ölümcül məğlubiyyətlərinə indidən imza atmış olurlar.

***Rövşən RƏSULOV***

# Radikal müxalifət növbəti ilə məhv olaraq gedir

### 2020-ci il də onlar üçün "ölüm ili" olacaq

Dağıdıcı müxalifətin, yola salacağımız 2019-cu ili də, uğursuzluqla başa vurması, artıq faktdır. Cari il ərzində bu düşərgədə fəaliyyət göstərən AXCP, Müsavat və s. siyasi təşkilatlar nə xalqdan, nə də xidmət etdikləri xarici təşkilatlardan dəstək almağı bacarmadılar. Əksinə, partiyalararası və partiyadaxili qarşıdurmalar, ziddiyyətlər pik həddinə çatdı, özlərini "ana müxalifətin liderləri" qismində zorla ictimai rəyə sırımağa çalışan psevdomüxalifətçilər didişmələrin və qarşılıqlı ittihamların sayını artırdılar.

### "Ölü" müxalifət növbəti ilə də satqınlıqla daxil olmaqdadır

Siyasi gündəmdə qalmaları üçün bir neçə aksiya keçirən ənənəvi düşərgənin "liderləri" bu planlarında da uğursuzluğa düçar olmaqdadırlar. Xüsusilə, "Milli Şura" və Müsavat 2019-cu ildə icazəli mitinq keçirsələr də, bu mitinqlər kütləviliyin alınmaması üzündən, fiaskoya uğramaqdadır. Çünki dağıdıcı müxalifət istər seçkilərərəfəsi, istərsə də ölkəmizdə keçirilən mötəbər beynəlxalq tədbirlər ərəfəsi qranta satılan Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Gültəkin Hacıbəyli, Xədicə İsmayıllı, Leyla Yunus və... və bu kimi əxlaqsız və mənəviyyatsızlar ölkədə siyasi sabitliyin pozulmasına, əldə olunan uğurlarımıza böhtan atmaqla erməni nökərçiliynə "sadiq" olduqlarını nümayiş etdirmək istəyiblər. Ancaq hər şey tam əksinə olub - "ölü" müxalifət növbəti ilə də ölüvaylıqla daxil olmağa məhkumdur.



Müxalifət düşərgəsinin fəaliyyəti ətrafında proqnozlar verən politoloq Namiq Mirinin sözlərinə görə, dağıdıcı müxalifət siyasi aktivlik göstərməməklə yanaşı, cəmiyyətlə işləməyi də kənara qoyduğu üçün 2019-cu ildə siyasi aktivlik olmadı, müxalifət təşkilatlarının keçirdiyi aksiyalara qatılım az oldu və bu aksiyalar fiaskoya uğradı. O, qarşıdan gələn 2020-ci ildə də müxalif düşərgənin bənzər aqibətlə qarşı-qarşıya qalacağını istisna etməyib və bildirib ki, müxalifətçilər 2020-ci ilin parlament seçkisi ili olduğuna və bu səbəbdən, öz-özünə aktivlik yaranacağına, mitinqlərdə kütləviliyin olacağına ümid edəcəklərsə, yenə də fiasko qaçılmaz olacaq. "Bundan sonra keçiriləcək mitinqlərə də, partiya fəallarından başqa, heç kim qatılmayacaq" deyə qeyd edən politoloqun sözlərinə görə, 2020-ci ildə müxalifətin böyük kütlərin qatıldığı mitinqlər keçirəcəyini söyləmək üçün hansısa əlamətlər görünmür.

Beləliklə, politoloqun fikirlərindən belə nəticəyə gəlmək mümkündür ki, nəinki 2020-ci ildə, eləcə də, ondan öncəki illərdə də sözügedən düşərgə heç bir uğur qazanmayıb, ona görə də, növbəti illərdə də onların aqibətinin dəyişilməyəcəyini bəri başdan proqnozlaşdırmaq olar. "Bunu fəaliyyətsizlik adlandırsaq, daha doğru olardı" deyən N.Miri cəmiyyətin də bu cür müxalifəti ciddiyə almamasını doğru və qəbul edilən hesab edir: "Yəni müxalifətin hansısa təşkilatı yenə aksiya keçirəcək və yenə də xalq aksiyaya qatılmayacaq. İnamsızlıq mühiti davam edəcək. İnamsızlıq mühiti davam etdikcə, hətta seçki ili olsa da, ölkədə siyasi aktivliyi, xalqın mitinqlərə qatılmasını gözləmək özünü aldatmaqdan başqa, bir şey olmaz... Cəmiyyət müxalifəti hakimiyyətə real alternativ qüvvə kimi görməyincə, hər gün mitinq keçirilsə belə, nəticə olmayacaq və fiasko qaçılmaz olacaq".

### "Dağıdıcı müxalifətin dağıdıcılıq "siyasəti" cəmiyyəti onlardan uzaq salır"

Yuxarıda da, qeyd olunduğu kimi, dağıdıcı düşərgə cəmiyyətdən dəstək ala bilmədiyi kimi, vaxtilə əlbir olduğu xarici təşkilatların da dəstəyindən məhrum olmaqdadır. Çünki düşərgədəki partiyaların hər biri az qala bir-birləri ilə açıq düşmənçilik mövqeyində dayanıblar. Düşmənçilik mövqeyi isə, durmadan artmaqdadır. Bu faktor sayəsində, yəni müxalifətin siyasi fəaliyyətsizliyi, bir-biri ilə yersiz rəqabət, bəzən düşmənçilik münasibətləri ona xarici diqqəti də azaldıb. N.Mirinin sözlərinə görə, düşərgədəki təşkilatlar arasında hələ də didişmə və birbirini qəbul etməmə sindromu hökmrandır: "Bu da təbiidir. Dağıdıcı müxalifətin dağıdıcılıq "siyasəti" cəmiyyəti onlardan uzaq salır. 2019-cu ildə təşkil olunan etiraz aksiyalarında kütləviliyin olmamasının və fiaskonun səbəblərindən biri də bu amillərdir".

Göründüyü kimi, baş verənlərin, bilavasitə müxalifətyönlü insanlar tərəfindən etiraf olunması isə, əslində, reallığın tam əksidir. Bu baxımdan, artıq tam əminliklə söyləmək mümkündür ki, dağıdıcı müxalifət daha bir uğursuz ili geridə qoymaq ərəfəsindədir. Və bütün bu deyilənlər, onu sübut edir ki, 2020-ci il də onlar üçün "ölüm ili" olacaq.

***Rəfiqə HÜSEYNOVA***

# Azərbaycanda Ombudsmanın uşaq hüquqlarının müdafiəsinə dair tədbirləri

***Uşaq hüquqlarının pozulması ilə bağlı şikayətlərin öyrənilməsi və pozulması, hüquqların bərpası, uşaqların vəziyyətinin öyrənilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə və uşaqların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş təkliflərin hazırlanması, habelə, uşaq hüquqları sahəsində və təşviqat yönümündə işlər davam etdirilmişdir.***

Uşaq hüquqları ilə bağlı 550 müraciət daxil olmuşdur. Həmin müraciətlərlə yanaşı, uşaqların hüquqları pozulduqda, təxirə salınmadan Müvəkkilə müraciət edilməsi və əlçatarlığın təmin edilməsi məqsədilə təsisatda 24 saat ərzində xidmət göstərən 916 nömrəli qaynar xəttə daxil olan 122 zənglə bağlı dərhal tədbirlər görülmüş, zəruri hallarda yerində araşdırmalar aparılmışdır.

Qaynar xəttə təhsil hüququnun pozulması, müalicə, yaşayış yeri ilə təmin olunma, ünvanlı sosial yardımın verilməməsi, alimentlə bağlı məhkəmə qərarlarının icra edilməməsi və digər məsələlərlə bağlı daxil olmuş müraciətlər üzrə hüquqi məsləhətlər verilmiş, araşdırmalar aparılmış və dövlət qurumları ilə əməkdaşlıqda tədbirlər görülmüşdür.

Müvəkkil tərəfindən ölkənin müxtəlif rayonlarında yerli icra hakimiyyətlərinin, o cümlədən, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların, məhkəmə, prokurorluq, polis, təhsil və səhiyyə orqanlarının, bələdiyyələrin, vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələrinin, uşaq müəssisələrində işləyən tərbiyəçilərin və uşaqların iştirakı ilə “Ümumdünya İnsan Hüquqları Bəyannaməsi”, “Uşaq Hüquqları Konvensiyası” və “Azərbaycanda uşaq hüquqlarının müdafiəsi” mövzularında silsilə təlimlər keçirilmişdir.

Uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının daha effektiv müdafiəsi məqsədilə Müvəkkil tərəfindən BMT-nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində 20 oktyabr - 20 noyabr tarixlərində respublikamızda “Uşaq hüquqları aylığı” elan edilmiş, aylıq çərçivəsində müvafiq tədbirlərin həyata keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, vətəndaş cəmiyyəti təsisatlarına müraciətlər edilmişdir.

Aylıq çərçivəsində görülən işlərlə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən Müvəkkilə ünvanlanmış arayışların təhlili göstərmişdir ki, uşaq problemlərinin araşdırılaraq həlli, onların sağlamlıq vəziyyətinin yoxlanılması, maarifləndirmənin təşkili və çoxsaylı müsabiqələrin keçirilməsi üzrə tədbirlər görülmüşdür. Həmin tədbirlərin uşaqların dünyagörüşünün genişlənməsinə, bilik və bacarıqlarının artırılmasına, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına, uşaq hüquqlarına dair dolğun məlumat almalarına, vətənpərvərlik ruhunda layiqli vətəndaş kimi formalaşmalarına təkan vermişdir.

Müvəkkilin təşəbbüsü və Təhsil Nazirliyi ilə əməkdaşlıqda orta məktəblərdə, artıq 2009-2010-cu tədris ilindən etibarən, uğurla həyata keçirilən uşaq hüquqları sahəsində həmyaşıddan-həmyaşıda üsulu ilə pilləli tədris proqramı Bakı şəhərinin hər rayonu üzrə bir, respublikanın Zaqatala, Balakən, Samux, Şəmkir, Masallı, Astara, Xaçmaz və Quba rayonlarının hərəsindən bir orta məktəbdə davam etdirilmişdir. Ümumilikdə, bu layihəyə 110-dan çox məktəb cəlb edilmiş, Müvəkkil tərəfindən 6350-dən artıq şagirdə sertifikat verilmiş, 500-dən çox müəllim və direktor təşəkkürnamə almışdır.

Müvəkkilin təşəbbüsü ilə respublikanın regionlarında və hətta kənd məktəblərində həyata keçirilən bu təcrübə yüksək dəyərləndirilmiş, həmin təhsil ocaqlarında uşaq hüquqlarının tədrisi mərkəzləri yaradılmış, müvafiq tədris vəsaitləri əsasında uşaqlara ünvanlanan hüquqi təhsil inkişaf etdirilməklə, Azərbaycan modeli formalaşdırılmışdır.

Müvəkkil məktəbdənkənar müəssisələrin inkişafını dəstəkləmiş, uşaqların bacarıqlarının və yaradıcılıq qabiliyyətinin inkişafı üçün əlverişli şəraitin yaradılması, onların istirahətinin, asudə vaxtının səmərəli təşkili üzrə bir sıra təkliflər vermişdir.

Uşaqların hüquqi biliklərinin inkişaf etdirilməsi, onların yaradıcılıq bacarıqlarının üzə çıxarılması məqsədilə, hər il olduğu kimi, 2015-ci ildə də Müvəkkilin təşəbbüsü ilə, ənənəvi olaraq, uşaqlar arasında “10 Dekabr Beynəlxalq İnsan Hüquqları Günü” münasibətilə “Mən və hüquqlarım” mövzusunda rəsm müsabiqələri təşkil edilmiş, qalib uşaqlara sertifikatlar və hədiyyələr verilmişdir.

Müvəkkil Təhsil Nazirliyinə fənn müəllimləri üçün ixtisasartırma təhsili proqramlarına və müvafiq təlimlərin məzmununa uşaq hüquqları ilə bağlı modulların daxil edilməsini təklif etmiş və həmin təşəbbüs dəstəklənmişdir.

Nazirlər Kabinetinin 2015-ci il 1 dekabr tarixli, 370 nömrəli qərarı ilə təsdiq edilmiş, bütün uşaqların peyvəndlərlə vaxtında və tam əhatə olunmasını, immunlaşdırma tədbirlərinin təhlükəsizliyinin təmin edilməsini və keyfiyyətinin artırılmasını, bu tədbirlərin monitorinqinin təmin olunmasını və davamlı maliyyələşdirilməsini, keyfiyyətli peyvənd materialları və avadanlıqlarla təchizatın yaxşılaşdırılmasını və digər tədbirlərin icrasını nəzərdə tutan “2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı” da olduqca əhəmiyyətlidir.

Cinsi selektiv abortların olması və bunun nəticəsində, doğulan uşaqların cins nisbətinin pozulması narahatlıq doğurur. Problemin həlli məqsədilə təcili zəruri tədbirlər həyata keçirilməli, ailə planlaşdırılması ilə bağlı maarifləndirmə işləri gücləndirilməlidir. Milli Məclisdə müzakirə olunan “Reproduktiv sağlamlıq haqqında” qanunun qəbul edilməsi isə, bu sahədə mövcud problemin həllində yardımçı olacaqdır.

Orta məktəblərdə uşaq və yeniyetmələrin siqaretdən, narkotik vasitələrdən istifadə etməsinin qarşısının alınması məqsədilə, qanunvericilikdə nəzərdə tutulduğu kimi, uşaqlara spirtli içkilərin və tütün məmulatlarının satılmamasına aidiyyəti quramlar və cəmiyyət tərəfindən nəzarətin gücləndirilməsi vacibdir.

UNİCEF-in imzalanmış Birgə Planına əsasən, həyata keçirilən proqram çərçivəsində Gəncə, Şəki, Quba və Cəlilabadda yerli icra hakimiyyəti orqanlarının, o cümlədən, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların, hüquq-mühafizə orqanlarının, təhsil və səhiyyə müəssisələrinin, sosial-müdafiə mərkəzlərinin, bələdiyyələrin, vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələrinin, uşaq müəssisələrində işləyən tərbiyəçilərin iştirakı ilə “Azərbaycanda uşaq hüquqlarının müdafiə mexanizmləri: çətinliklər və həlli yolları” mövzusunda təlimlər keçirilmiş, iştirakçılara uşaqların hüquq və vəzifələri, məsuliyyəti, Müvəkkilin uşaq hüquqları sahəsində fəaliyyəti, uşaq hüquqlarının müdafiəsi mexanizmləri ilə bağlı məlumatlar verilmiş və müzakirələr keçirilmişdir.

Uşaqların zorakılıqdan müdafiəsi məqsədilə ölkəmiz tərəfindən 2008-ci ildə imzalanmış Avropa Şurasının “Uşaqların cinsi istismar və sui-istifadədən müdafiə olunmasına dair” Konvensiyasının ratifikasiyası və Müvəkkil tərəfindən UNİCEF-in dəstəyilə hazırlanaraq, 2009-cu ildə Milli Məclisə təqdim edilmiş “Uşaqların cismani cəzadan müdafiəsi haqqında” qanunun qəbul olunması olduqca zəruridir.

Qanunla ziddiyyətdə olan uşaqların hüquqlarının və qanuni maraqlarının müdafiəsi məqsədilə “Yuvenal ədliyyə haqqında” qanunun qəbul edilməsi, bu məqsədlə struktur islahatlarının aparılması, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların əsasnaməsinin və fəaliyyətinin təkmilləşdirilməsi, sosial işçilər və psixoloqların hazırlanması böyük zərurətə çevrilmişdir.

Təəssüf ki, bütün dünyada olduğu kimi, ölkəmizdə də uşaqlar müəyyən səbəblərdən müxtəlif növ zorakılıqlara məruz qalırlar. Bir çox hallarda, valideynlərtərəfindən yuxarısiniflərdəoxuyan qız uşaqlarının dərsə buraxılmaması, nikah rəsmiləşdirmədən, erkən yaşlarda öz iradəsinə zidd olaraq, zorla ailə qurmağa məcbur edilmələri kimi hallar ciddi narahatlıq doğurur. Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsində (AUGSŞ) və onun nəzdində “Azərbaycan yurdum mənim” devizi ilə fəaliyyət göstərən “Liderlik Məktəbi”ndə, müntəzəm olaraq, uşaqların iştirakı ilə Uşaq Hüquqları Konvensiyasının müddəalarına əsaslanan treninqlər, vətənpərvərlik ruhunda maarifləndirmə tədbirləri keçirilmiş, şəbəkə üzvlərinin asudə vaxtlarının səmərəli təşkili məqsədilə muzeylərə və tarixi yerlərə səfərlər təşkil edilmişdir.

AUGSŞ Dövlət Neft Şirkətinin Xəzər rayonunun Qala qəsəbəsində yerləşən “Eko-Park”ında 22 aprel “Beynəlxalq Yer Günü”, 22 may “Beynəlxalq Bioloji Müxtəliflik Günü”, 5 iyun “Ətraf Mühitin Mühafizəsi Günü” münasiboti ilə gənc nəslin ekoloji davranışını və ekoloji hüquq normalarına münasibətini formalaşdırmağa yönəlmiş maarifləndirmə tədbirləri və sərgilər keçirmişdir.

Müvəkkil Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin üzvi kimi, onun işində fəal iştirak etmişdir. Belə ki, ENOS-un təşkil etdiyi Beynəlxalq Avropa Gənc Məsləhətçilər Şəbəkəsinin “Danışın gənclər, zorakılığa qarşı danışın!” layihəsi çərçivəsində 10-18 yaşlı uşaqlar arasından toplanmış qrupun üzvləri öz hüquqları barədə mətbuatda müvafiq yazılar dərc etmişlər. ENOC-a üzv seçilmiş ölkələrdən yalnız 10 dövlətə bu mövzu üzrə film çəkmək təklif edilmişdir. Uğurlu fəaliyyəti ilə fərqlənən Azərbaycanın təqdim etdiyi və uşaqların iştirakı ilə hazırlanan film də bir çox ölkələrdə göstərilməsi üçün seçilmiş, nəticədə, on iştirakçı ölkə üzrə filmlər ümumiləşdirilərək, 50 dəqiqəlik sənədli film kimi təqdim edilmişdir. Həmin beynəlxalq layihənin iştirakçısı kimi, AUGSŞ-nin 30 üzvünə ENOC tərəfindən sertifikat verilmişdir.

BMT-nin İnsan Hüquqları Şurası Universal Dövrü İcmal üzrə İşçi Qrupunun Azərbaycan üzrə 2013-cü il hesabatında (A/HRC/24/I3) uşaq hüquqlarına dair bir sıra təkliflər, o cümlədən, BMT-nin Uşaq Hüquqları Konvensiyasının şikayətlərin verilməsi mexanizmi ilə bağlı III Fakültativ Protokolunun imzalanması və ratifikasiya edilməsi tövsiyə edilmişdir. Müvəkkil bununla bağlı müvafiq quruma müraciət etmişdir.

Müvəkkilin uşaq hüquqlarının səmərəli təmin edilməsi istiqamətində ötən dövrlərdə irəli sürdüyü bir sıra təklif və tövsiyələr, istər qanunvericilik aktlarının qəbulu, istərsə də cari icra prosesində öz həllini tapmışdır. Bu baxımdan, Milli Məclisin qərarı ilə “Ailə, Qadın və Uşaq Məsələləri Komitəsi”nin yaradılması xüsusi qeyd edilməlidir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs



# “Nar”ın baş sponsorluğu ilə “Breyn Rinq” yarışı davam edir

Təhsilə, elmə və maariflənmənin təbliğinə xüsusi önəm verən “Nar”ın baş sponsorluğ ilə ölkənin ən maraqlı intellektual yarışı olan “Breyn Rinq”in 14-cü mövsümü davam edir. 11 universitet və 15 region komandası arasında gedən gərgin mübarizədə oktyabr ayının qalibi “Nar” komandası olub. Hər il olduğu kimi bu il də mobil operator intellektual verilişin izləyicilərinə hədiyyə qazanmaq şansı verir. Belə ki, veriliş efirdə yayımlandığı zaman “Nar”-ın “Facebook” səhifəsində qoyulmuş suala ən tez cavab verənlər hədiyyə qazana bilər. Oktyabr ayı ərzində səhifədə paylaşılan suala ən tez cavab verənlər Rahil Dadaşlı, Orxan Abbasov, Mahira Sadıqova, Əli Məmmədov, Elcin Allahverdili və Niko Sadıqovdur.



Qeyd edək ki, yarış hər həftənin bazar günü saat 20:00-də İctimai Televiziyada yayımlanır. Oyun yanvarın əvvəlinə qədər davam edəcək. Bu mövsüm isə komandalar “Bilik” kuboku uğrunda mübarizə aparır. “Bilik” kubokunun qalibi ötən mövsüm “Nar” kubokunun qalibi olmuş “Nar” komandası ilə “Brain Ring 2019” Azərbaycan çempionu titulu uğrunda yarışacaq.

Qeyd edək ki, “Nar” gənclərin maariflənməsinin, dünyagörüşünün və analitik düşüncə bacarığının inkişafını stimullaşdırmaq məqsədilə müxtəlif intellektual oyunları dəstəkləyir.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə əhalisinin 97,5 %-ni əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# “Qoca və Mələk” nümayiş olunacaq

Azərbaycan Dövlət Pantomima Teatrı repertuarında ən populyar tamaşalardan olan “Qoca və Mələk” tamaşasını noyabrın 10-da təqdim edəcək. Teatrdan AZƏRTAC-a bildirilib ki, rejissor Elnur Rzayevin quruluşunda izləniləcək tamaşa bir qocanın həyat hekayəsindən bəhs edir. Hadisələr onun yaşadıqları, başına gələn əhvalatlar fonunda cərəyan edir. Plastik həll üzrə rejissoru Xalq artisti Bəxtiyar Xanızadə olan səhnə əsərinin musiqi tərtibatı Leyla Atayevaya məxsusdur.



## ELAN

**Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin II kurs tələbəsi Şıxəmirli Sona Gündüz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**x x x**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat informatika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Rəhimova Gülər Oqtay qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

# Binəqədi rayonunda “Nəsimi dühası-650 il” adlı tədbir keçirilib





***Binəqədi rayon icra hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı və Binəqədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən “Nəsimi dühası-650 il” adlı layihə çərçivəsində növbəti təqdimat baş tutub.***

Təsdiq edilmiş qrafikə uyğun olaraq 3, 102 və 276 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə 3 nömrəli tam orta məktəb şagirdlərinin ifasında Nəsiminin yaradıcılığında yer alan və Nəsimiyə həsr olunmuş müxtəlif qəzəllər, musiqilər ifa edilib, kompozisiyalar nümayiş etdirilib.

Tədbirin bədii hissəsi başa çatdıqdan sonra çıxış edən 3 nömrəli tam orta məktəbin direktoru Natəvan Əsədova tədbirin hazırlanması haqqında məlumat verib. Bildirib ki, bu cür tədbirlərin keçirilməsi şagirdlərin hərtərəfli yetişməsində və onların maarifləndirilməsində olduqca mühüm rol oynayır.

Tədbirdə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, İmadəddin Nəsimi təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün böyük mütəfəkkir və istedadlı şəxsiyyətdir. Böyük filosof şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şeirin özülünü qoymuş, bədii söz sənətimizi forma və məzmunca zənginləşdirmiş söz ustadıdır. Nəsimi yaradıcılığı, nəinki Azərbaycan ədəbi mühitinin formalaşmasına, eləcə də, ümumbəşəri dəyərləri, insanın fövqəlbəşəri varlıq olmasını tərənnüm etməklə, dünya ədəbiyyatına da böyük təsir göstərib. Çünki Nəsimi bütün bəşəriyyəti öz yaradıcılığı ilə əsərlərində ifadə etməyi bacaran dahi şair və mütəfəkkirdir. Bu baxımdan, ölkə Prezidenti İlham Əliyev tərəfindən 2019-cu ilin “Nəsimi İli” elan edilməsi haqqında Sərəncam imzalanması təsadüfi deyil. “Nəsimi ili” çərçivəsində ölkəmizin hər bir yerində, o cümlədən, Binəqədi rayonunda da silsilə tədbirlər keçirilir və Nəsiminin əziz xatirəsi ehtiramla yad edilir. R.Göyüşov çıxışının sonunda məktəbliləri təbrik edərək, onlara uğur arzulayıb.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# Xəbərdarlıq: Hava kəskin dəyişəcək, qar yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib. Departamentdən AZƏRTAC-a verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında uzun müddət davam edən anomal isti hava şəraitindən sonra oktyabrın 31-dən noyabrın 4-ü gündüzədək hava şəraitinin qeyri-sabit keçəcəyi, fasilələrlə yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə yağışın intensivləşəcəyi ehtimalı var. Oktyabrın 31-i və noyabrın 2-də güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° enəcək.



Azərbaycanın rayonlarında oktyabrın 31-i səhərdən şimal və qərb rayonlarından başlayaraq noyabrın 3-ü gündüzədək bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı proqnozlaşdırılır. Əsasən şimal və şərq rayonlarında yağışın intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı bildirilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq. Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarında qısamüddətli daşqın və sel olacağı ehtimal edilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**